**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**XURAMAN BƏHMƏN qızı HÜMMƏTOVA**

# KLASSİK AZƏRBAYCAN ŞEİRİNDƏ TƏSƏVVÜF
# ( XII-XVI ƏSRLƏR )

**5716.01 – Azərbaycan ədəbiyyatı**

Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Qədim dövr Azərbaycan ədəbiyyatı və Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbələrində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İmamverdi Yavər oğlu Həmidov,**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Fəridə Əhəd qızı Əzizova,**
filologiya üzrə elmlər doktoru

**Kamil Hüseyn oğlu Allahyarov,**
filologiya üzrə elmlər doktoru, professor

**Nəsib Cümşüd oğlu Göyüşov,**
filologiya üzrə elmlər doktoru

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə "____" _________ 2018-ci il saat "____" da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131 - Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" _________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının Elmi katibi:** **İsmixan Məhəmməd oğlu Osmanlı,**
filologiya üzrə fəlsəfə doktoru

## TƏDQİQATIN ÜMUMİ SƏVİYYƏSİ

**Mövzunun aktuallığı.** İnkişaf mərhələləri minillikləri adlayan Azərbaycan ədəbiyyatı özünün bəşəri ideyaları əks etdirməsi baxımından daim tədqiqatçıların və ədəbiyyatçıların maraq obyektində qalmaqdadır. Bu ədəbiyyat öz inkişafı boyunca sırf ədəbiyyat hadisəsi olaraq qalmamışdır. O, keçdiyi dövrlərin fəlsəfi-ideoloji düşüncələri və təlimləri ilə yaxından təmasda olmuşdur.

Azərbaycan ədəbiyyatının ən böyük ideoloji qaynaqlarından birini təsəvvüf düşüncəsi təşkil edir. Bu cəhətdən klassik Azərbaycan şeirində təsəvvüf probeminin araşdırılması aktual və mürəkkəb problemdir.

Müstəqillik dönəminə qədər sovet ədəbiyyatşünaslığının tələbləri tədqiqatçılara "ədəbiyyat və təsəvvüf" problemini obyektiv elmi əsaslarla öyrənməyə imkan vermirdi. Onlar klassik Azərbaycan ədəbiyyatının ruhunda yaşayan təsəvvüfi ideyaları "xurafat", "zərərli ideoloji düşüncə" təzahürləri kimi təqdim etməyə məcbur olmuşlar.

Azərbaycan ədəbiyyatşünaslığında təsəvvüfün bir mərhələ kimi öyrənilməsi müstəqillik əldə ediləndən sonra daha geniş vüsət almağa başladı. Demək olar ki, Azərbaycan ədəbiyyatşünaslığında "təsəvvüf mərhələsi" deyilən bir mərhələ yarandı. Bu mövzuda çoxsaylı əsərlər yazılıb, tədqiqatlar aparılıb, monoqrafiyalar çapdan çıxıb.

Tədqiqat işini aktul edən amillərdən bir də milli-mənəvi düşüncəmizdə özünəməxsus yeri olan Nizami Gəncəvi məsnəvilərində təsəvvüf məqamlarının təhlilə cəlb olunmasıdır. Bu tədqiqatda Nəsimi, Xətai, Füzuli və başqa görkəmli sənətkarların təsəvvüfi görüşləri barədə məlumat verməklə yanaşı, ədəbiyyatşünaslığımızda bu vaxta qədər az öyrənilmiş və ya naməlum qalan Əhməd Yəsəvi, İzzədin Həsənoğlu, Süleyman Həkim Ata, Hacı BayramVəli, Yusif bəy Ustaclu, Qəribi, Sürури kimi şairlərin həyatı və təsəvvüf məzmunlu şeirlərinin təhlilinə geniş yer verilməsi dissertasiya işinin aktuallığını daha da artırır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti zaman və ədəbi material sərhədləri etibarilə böyük bir dövrü (XII-XVI əsrlər) və çoxlu ədəbi nümunələri əhatə edir. Burada, xüsusilə ədəbi nümunələrin seçilməsinə tətbiq olunan meyar önəmli rol oynayır. Tədqiqatın obyekti təkcə Nizami Gəncəvi, İzzəddin Həsənoğlu, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və bu kimi tanınmış sənətkarlarla yanaşı,Əhməd Yəsəvi, Süleyman Həkim Ata, Şeyx Səfiəddin, Hacı Bayram Vəli, Ustaclu Yusif bəy, Qəribi və Süruri yaradıcılığına verilən dəyərin araşdırılıb ümumiləşdirilməsi təşkil edir.

Tədqiqatın predmetini Azərbaycan ədəbiyyatının göstərilən dövründə (XII-XVI əsrləri) yaşayan sənətkarların yaradıcılığında təsəvvüfün inkişafının yeni elmi əsaslar kontekstində öyrənilməsi təşkil edir.

**Tədqiqatın əsas məqsəd və vəzifələri.** Dissertasiyanın qarşısında duran əsas məqsəd XII- XVI əsrlər Azərbaycan şeirində təsəvvüf probleminin öyrənilməsidir. Tədqiqatda bu məqsədlə həyata keçirilmiş ən mühüm vəzifələr aşağıdakı əsas istiqamətləri əhatə edir:

1. Təsəvvüf və Azərbaycan ədəbi düşüncə tarixində qarşılıqlı münasibətlərin araşdırılması, təsəvvüfi görüşlərin bədii obraza keçməsinin ümumi nəzəri əsaslarının tədqiqi;
2. XII -XIV əsrlər Azərbaycan şeirində təsəvvüfi görüşlərin inkişaf istiqamətlərinin tədqiqi;
3. XV-XVI əsrlər Azərbaycan şeirində təsəvvüfi görüşlərin inkişaf istiqamətlərinin öyrənilməsi;

**Mövzunun tədqiq tarixi.** Bütün sahələrdə olduğu kimi , Azərbaycan ədəbiyyatşünaslığında da 70 il hakim olan sosializm realizmi yanaşma modeli istənilən sənətkarın yaradıcılığını ilk növbədə sosial tərəflərdən işıqlandırıb, onda sosial ideyalar axtarmaqla bütün başqa yanaşmaları öz kölgəsi altına almışdır.

Müstəqillikdən sonra bu mövzuda irili-xırdalı çoxsaylı əsərlər yazılıb, tədqiqatlar aparılıb, monoqrafiyalar çapdan çıxıb. Y.Qarayev,[1] Ç.Sasani[2], A.Rüstəmova,[3] Q.Paşayev,[4] N.Araslı,[5] N.Göyüşov,[6] S.Şıxıyeva,[7] S.Hacı,[8] F.Bayat,[9] R.Fazeh,[10]

---

[1] Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 712 s.

[2] Sasani Ç. Orta əsrlər Azərbaycan poeziyasında naturalist ədəbi-fəlsəfi fikir. Bakı: Elm, 2007, 430 s.

[3] Rüstəmova A. Mövlana Cəlaləddin Rumi. Bakı: Elm, 2005, 175 s.

[4] Paşayev Q. Nəsimi haqqında araşdırmalar. Bakı: Qarabağ, 2010, s.50.

[5] Araslı N. Nizaminin poetikası. Bakı: Elm, 2004, 454 s.

[6] Göyüşov N. Quran və irfan işığında (Hikmət və düşüncə karvanı həqiqət sorağında), Bakı: "İqtisad Universiteti" nəşriyyatı. 2004, 288 s.

[7] Şıxıyeva S. Hürufilik və irfani görüşlərin müqayisəli tədqiqi (Nəsimi şeiri əsasında) // Elmi araşdırmalar (elmi-nəzəri məqalələr toplusu). № 1-2, VI buraxılış. Bakı: Nurlan, 2003, s. 358.

[8] Hacı S. Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı ilk dörd məqalənin şərhi ( 6-cı kitab). Bakı: Nafta-Press, 2013, 587 s.

[9] Bayat F. Xoca Əhməd Yəsəvi və xalq sufizminin bəzi problemləri. Bakı: Ağrıdağ, 1997, 101 s.

[10] Fazeh R. Seyid İmadəddin Nəsiminin bəzi şeirlərinin şərhi. Bakı:Şərq-Qərb, 2007, s.392.

Ş.Əsgər, [1] A.Mirzəyev, [2] S.Xavəri [3], M.Rıhtım, F.Xəlilli, [4] F.Əzizova, [5] A.Qasımova, [6] Z.Bayramlı. [7] Bu tədqiqat işində onlara bir-bir münasibət bildirsək, burada çox böyük bir siyahı alınar.

Azərbaycan ədəbiyyatında təsəvvüf məsələsindən danışarkən sovet dönəmində üstüörtülü də olsa, Ə.Abid, S.Mümtaz, A.Şaiq, M.Təhmasib, H.Araslı, M.Quluzadə, R.Əliyev və s. kimi tədqiqatçılar yeri gəldikdə bu mövzu haqqında danışmış, ayrı-ayrı şairlərimizin yaradıcılığında təsəvvüfi məqamlara aydınlıq gətirmişlər.

Sovet ideologiyasının tüğyan etdiyi bir zamanda H.Araslı 1958-ci ildə "Böyük Azərbaycan şairi Füzuli"[8] monoqrafiyasını yazmışdır. Daha sonra isə M.Quluzadə 1965-ci ildə "Füzulinin lirikası"[9] adlı monoqrafiyasını çap etdirmişdir

A.Rüstəmovanın "Nizami və onun poeziya sələfləri"[10] və N.Araslının "Nizaminin poetikası"[11] kitablarının xüsusi əhəmiyyəti var.

N.Cümşüdoğlunun müstəqillik dövründə nəşr olunmuş "Füzulinin sənət və mərifət dünyası"[12] və "Quran və irfan işığında"[13] monoqrafiyaları ədəbiyyatımızda təsəvvüflə bağlı yazılan ən mükəmməl əsərlərdən biridir.

R.Əliyevin "Anadilli Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" [14] adlı

---

[1] Əsgər Ş. Məhəmməd Füzuli qəzəllərinin irfani şərhi. Üç cilddə, I cild. Bakı: Nurlar, 2008, 568 s.

[2] Mirzəyev A. Azərbaycan epik şeirinin təşəkkül dövrü. Bakı: Elm və təhsil, 2016, 238 s.

[3] Xavəri S.A. Azərbaycan təsəvvüf ədəbiyyatı (XIII-XIV əsrlər): Fil. elm. nam. ...dissertasiya. (Əlyazması hüququnda) Bakı: 1999, 170 s.

[4] Rıhtım M, Xəlilli F. İsmayıl Siracəddin Şirvani. Bakı: CBS Polugraphic Production, 2011, 165 s.

[5] Əzizova F.. Klassik ərəb poeziyasında Azərbaycan şairləri: Genezis, poetika (VIII-XI əsrlər). Bakı: Elm, 2017, 242 s.

[6] A.Qasımova. Füzuli yaradıcılığında Quran rəvayətləri. Bakı: Bakı Dövlət Universitetinin Nəşriyyatı, 1995, 190 s.

[7].Bayramlı Z. Füzuli və çağdaş ədəbi-nəzəfi fikirlər. Bakı: Elm, 2012, s.114

[8] Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyyatı Nəşriyyatı, 1958, 312 s.

[9] Quluzadə M. M. Füzulinin lirikası. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı,1965, 475 s.

[10] Rüstəmova A. Nizami və onun poeziya sələflər. Bakı: Elm , 1999, 279 s.

[11] Araslı N. Nizaminin poetikası. Bakı: Elm, 2004, 454 s.

[12]Cümşüdoğlu N. Füzulinin sənət və mərifət dünyası. Bakı-Tehran: Süruş Beynəlxalq Nəşriyyatı, 1997, 386 s.

[13] Göyüşov N. Quran və irfan işığında (Hikmət və düşüncə karvanı həqiqət sorağında), Bakı: "İqtisad Universiteti" nəşriyyatı. 2004, 288 s.

[14] Əliyev R. Anadilli Azərbaycan ədəbiyyatı oçerkləri. I cild. Nəsimi və klassik dini üslubun təşəkülü. Bakı: Nafta-Press, 2006, 363 s.

kitabında klassik üslubun formalaşmasında Nəsiminin roluna aydınlıq gətirərək göstərir ki, sufilərin yaratdığı ədəbiyyat, xüsusilə poeziya bütün islam mədəniyyətini zənginləşdirməyə səbəb olmuşdur.

R.Fazehin "Seyyid İmadəddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi"[1] kitabında şairin işlətdiyi ayə və hədislərin ifadə etdiyi irfani mənalarına aydınlıq gətirərək şərh edib .

Əsgər Şahi "Məhəmməd Füzuli qəzəllərinin irfani şərhi"[2] adlı əsərində Füzuli qəzəllərinin həm dini, həm də təsəvvüfi baxımdan təhlilini vermişdir.

Azərbaycanda ədəbiyyatşünaslığında təsəvvüf məzmunlu əsərlərin tərcüməsi də özünəməxsus yer tutur. Bu baxımdan təsəvvüfün nəzəri əsaslarını əks etdirən Seyid Yəhya Bakuvi və onun "Səfa əl-əsrar"[3] ("Sufilirin sirləri") əsəridir. Bu əsərlə biz Azərbaycanda ilk sufilər, ilk sufi məktəbləri, birlikləri, yəni təriqətlər, ayrı-ayrı təriqət və onların nümayənlərindən haqqında məlumat alırıq. "Səfa əl-əsrar" əsərinin II hissəsi təsəvvüfün nəzəri əsaslarından bəhs edir.

Bu gün klassiklərimizdə istisnasız olaraq təsəvvüfi məqamlar ön plana çəkilir, qabardılır. Ç.Sasanian[4] Füzulinin "kamali-eşq" əhli, S.Şıxıyeva[5] Füzulini "irfan əhli" olmasını, İ.Həmidov[6] isə ərəb ədəbiyyatşünaslığında Füzulinin heç də sırf təsəvvüf şairi olmadığı haqqında faktları da elmi fikir dövriyyəsinə daxil edir.

**Tədqiqatın başlıca elmi yenilikləri.** "Klassik Azərbaycan şeirində təsəvvüf (XII-XVI əsrlər)" adlı tədqiqat işində əsaslı elmi yeniliklər əldə edilmişdir. Həmin yeniliklərdən mühüm hesab etdiklərimiz bunlardır:

- Ədəbiyyatda təsəvvüfün yaranmasında önəmli rol oynayan təriqətlər və onların nümayəndələrinin roluna aydınlıq gətirilmişdir.
- Qədim və erkən orta əsrlər şeirində təsəvvüfi ideya və motivlərin

---

[1]Fazeh R. Seyid İmadəddin Nəsiminin bəzi şeirlərinin şərhi. Bakı:Şərq-Qərb, 2007, s.392

[2]Əsgər Ş. Məhəmməd Füzuli qəzəllərinin irfani şərhi. Üç cilddə, I cild. Bakı: Nurlar, 2008, 568 s.

[3]Seyid Yəhya Əş-Şirvani əl-Bakuvi. Səfa əl-Əsrar (Sufiliyin sirləri) Nəşrə hazırlayan M.Rıhtımdır. Bakı: Elm, 2010, 407 s.

[4] Sasanian Ç. Nizami və Füzuli yaradıcılığında irfan // Ədəbiyyat məcmuəsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri (XVII cild). Bakı: Ağrıdağ, 1999, s. 162-172.

[5] Şıxıyeva S. Nəsiminin və Füzulinin "Tanrı və eşq" təlimləri // "Məhəmməd Füzuli – 500" (Beynəlxalq Füzuli simpoziumunun materialları, 7-8 noyabr, 1996). Bakı: 1997, s. 65-73.

[6]Həmidov İ. Azərbaycan-ərəb ədəbi əlaqələrindən səhifələr. Bakı: Elm, 2002, 209 s.

məzmunu, ideya xüsusiyyətləri araşdırılmış, yaranan təsəvvüf məzmunlu şeirlər təhlilə cəlb edilmişdir;

- Nizami Gəncəvinin poemalarında təsəvvüf məzmunu daşıyan məqamlar təhlilə cəlb edilmiş, təsəvvüfi ideyanın bədii ideyaya keçməsinə aydınlıq gətirilmişdir;
- Əhməd Yəsəvi, Həkim Süleyman Ata, Şeyx Səfiəddin Ərdəbilinin təsəvvüf görüşləri, filosof-şair Mahmud Şəbüstərinin poetik təsəvvüfün inkişafındakı rolu öyrənilmişdir;
- Anadilli şeirdə İzzəddin Həsənoğlunun qəzəlləri əsasında təsəvvüfün inkişaf xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- Qazı Bürhanəddin poeziyasında təsəvvüfi ideyanın etnik-milli çalarlarının ideya-məzmun xüsusiyyətləri aydınlaşdırılmışdır;
- Klassik təsəvvüf ənənələrinin inkişaf istiqamtlərinin davamı Marağalı Əvhədinin yaradıcılığında araşdırılmışdır;
- İmadəddin Nəsimi və onun təsiri ilə yazıb-yaradan hürufi şairlərin əsərlərində təsəvvüf özünüdərk modeli kimi tədqiq olunmuşdur;
- Milli poeziyada təsəvvüfi ideya ilə bədii obrazın ilahi-estetik vəhdəti Şah Qasım Ənvarın yaradıcılığında tədqiqata cəlb olunub;
- Həbibi yaradıcılığı əsasında təsəvvüf və humanizm probleminin əsas ideya istiqamətləri müəyyənləşdirilmişdir;
- Qızılbaşlıq ideyasının yayılması və genişlənməsində Xətaidən sonra yazıb-yaradan Qəribi və onların təsəvvüf məzmunlu şeirləri araşdırılıb;
- Məhəmməd Füzuli, Yusif bəy Ustaclu və Sürurinin yaradıcılığında inikas olunmuş təsəvvüfi-irfani görüşlərdən və Füzulinin özündən sonrakı təsəvvüf şeirinə təsirindən söz açılmışdır.

**Tədqiqatın elmi-metodoloji əsasları.** Dissertasiya işinin xarakterinə uyğun olaraq tarixi-ədəbi, nəzəri yanaşma və tekstoloji, bioqrafik metod prinsplərinə əsaslanaraq müqayisəli və sistemli təhlildən istifadə olunub. Tədqiqatın elmi –metodoloji əsasında görkəmli alimlərin təsəvvüflə bağlı ümumi-nəzəri əhəmiyyət kəsb edən fikirləri və XII-XVI əsr şairlərinin təsəvvüf məzmunlu şeriləri dayanır. Bütün bu tədqiqatlar nəticəsində poeziyada təsəvvüfi-irfani ideya və motivlərin öyrənilməsi ilə bağlı geniş, məzmunlu və əsaslı nəzəri-metodoloji baza yaranmışdır. Tədqiqatda tarixi müqayisəli metoddan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Aparılmış tədqiqatın eyni zamanda həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. İşin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, burada bütöv bir dövrün ədəbi düşüncəsində təsəvvüfi-irfani ideyanın motivləşməsi (bədii ideyaya çevrilməsi) tədqiq olunaraq faktiki materiallarla təhlil olmuşdur. Həmin nəzəri təcrübəni əks

etdirən fikir və mülahizələr gələcək tədqiqatlarda istifadə oluna bilər. Bu cəhətdən apardığımız araşdırmadan ali məktəblərdə klassik ədəbiyyatın tədrisi zamanı dərs vəsaiti kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEANizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Qədim dövr Azərbaycan ədəbiyyatı və Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbələrində yerinə yetirilmiş və müzakirə olunmuşdur. Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri müəllifin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, eyni zamanda xarici ölkələrin müvafiq elmi nəşrlərində dərc etdirdiyi müxtəlif elmi məqalələrində, onun bir sıra Beynəlxalq və Respublika səviyyəli elmi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Tədqiqat işi giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir. Hər fəsil özlüyündə qoyulan problemin daha aydın həlli üçün bir neçə yarımfəsillərə və bəndlərə ayrılmışdır.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işin tədqiqi tarixi, obyekt və predmeti, məqsədi və vəzifələri göstərilmiş, elmi yeniliyi və metodoloji bazası, nəzəri və təcrübi əhəmiyyəti haqqında məlumat verilmiş, aprobasiyası və strukturu müəyyənləşdirilmişdir.

Dissertasiyan işinin birinci fəsli **"Azərbaycan ədəbiyyatında təsəvvüf düşüncəsi tarixinə bir baxış"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir.

Bu fəslin birinci yarımfəslində **"Milli ədəbi düşüncənin qaynağı: təsəvvüfün mənşəyi, mahiyyəti və fəlsəfi-poetik xüsusiyyətləri"** haqqında ətraflı məlumat verilir.

Təsəvvüf elə bir düşüncə hadisəsidir ki, təkcə klassik Azərbaycan ədəbiyyatını yox, bütövlükdə Azərbaycan milli düşüncəsini ondan kənarda təsəvvür etmək mümkün deyildir. Ümumiyyətlə, klassik Azərbaycan şeirinin təsəvvüfi semantikasının (poetik məna aləminin) öyrənilməsinə həsr olunmuş tədqiqatda belə təsəvvüfi sırf ədəbi düşüncə ilə bağlı hadisə kimi götürmək olmaz. Bu qədim və orta əsrlər Şərq ideoloji düşüncəsi olan təsəvvüfi kiçiltmək deməkdir. Çünki ədəbiyyatla təsəvvüfün əlaqələri yalnız bu iki düşüncə formasını əhatə etməkdən daha iri, daha mürəkkəb quruluşa malik hadisədir. Bu cəhətdən "ədəbiyyat-təsəvvüf" problemi nə ayrılıqda götürülmüş dini, nə sırf ideoloji, nə də sırf ədəbi münasibətlər

zəminində öyrənilə bilməz. Bütün bunlar əlaqəli şəkildə araşdırılmalıdır, yoxsa təsəvvüfün Azərbaycan ədəbiyyatındakı rolunu müəyyən etmək olmaz.

Azərbaycan milli düşüncəsinin təsəvvüf və ədəbiyyat arasındakı əlaqə ictimai şüurun digər formalarını da əhatə etmişdir. Buradakı əlaqələr həm dini, həm fəlsəfəni, həm də müxtəlif dünyagörüşləri və s. əhatə edən vahid sistem daxilində araşdırılıb.

Məlum olduğu kimi təsəvvüf düşüncəsi qədim və orta əsrlər Şərqinin dini-fəlsəfi ideologiyası kimi öz tarixi, yayılma coğrafiyası, mədəni məzmun və mündəricəsi, milli təzahür formaları etibarilə təsəvvürə gəlməyəcək dərəcədə nəhəng hadisədir. Təsəvvüfü islam dinində mistik bir cərəyan kimi səciyyələndirən rus (sovet) şərqşünasları belə hesab edirlər ki, onun əsasını təşkil edən mistik əhvalı-ruhiyyə, demək olar ki, islamla eyni vaxtda meydana gəlmişdir. Təsəvvüfün mahiyyətinin açılmasında bəzi filosofların fikirlərinin geniş aspektdə təhlili tədqiqatda önəmli rol oynayır.

Cüneyd Bağdadiyə (IX əsr) görə, təsəvvüf insanın öz varlığında ölməsi, Tanrı ilə dirilməsidir, başqa sözlə, haqqın səni öz nəfsində öldürməsi və səni özündə diriltməsidir.

Təsəvvüfün bu tərifi insanın fiziki-mənəvi kamilləşməsinin fəna-fillah və bəqa-billah modelinə uyğundur. Fəna-fillah və bəqa-billah Allaha gedən yolun nəzəri konstruksiyasının sxemidir. Bu sxem salikin həyatının – ona verilmiş yaşam limitinin reallaşdırılma modelidir. Həmin sxem-model nəzəri konstruksiyada mövcud olduğu kimi, eyni zamanda salikin adi, gündəlik yaşam modelində təcəssüm olunaraq onun “öz varlığında ölməsi, Tanrı ilə dirilməsi” kimi həyati mövcudluq praktikasına çevrilir. “Öz varlığında ölüb, Tanrı ilə dirilmə” həyati praktika, yaşam-davranış modeli kimi, əslində, son dərəcə mürəkkəb bir modeldir. O qədər mürəkkəbdir ki, sufinin nüzul-üruc (enib-qalxma) trayektoriyası üzrə bütün ömür yolunu sxemə çevirəcək dərəcədə ümumiləşdirmə gücünə malikdir. “Öz varlığında ölüb Tanrı ilə dirilmə” modeli öz tarixi, fəlsəfi-ideoloji mahiyyəti, nəzəri-metodoloji konsepsiyası, mədəni-tarixi gerçəkliyi ilə bir ümmana bənzəyən təsəvvüfün bütün mahiyyətini özündə ifadə edir. Cünyed Bağdadi məhz buna görə, təsəvvüfə verdiyi tərifi sadələşdirir, onu daha anlaşıqlı kateqorial səviyyəyə salır.

Təsəvvüfün təqdim etdiyi modeldə vahiddən (Allahdan) ayrılma, yenidən ilkin başlanğıca (Allaha) dönmə və ona qoşulmaq ideyası təsəvvüfi-irfani hərəkətin struktur sxemini təşkil edir.

Təsəvvüf əhlinin fikrinə görə, bu ayrılma və qovuşma mərhələsində olan an kəsrətdən vəhdətə, maddilikdən mənəviliyə gedən yoldur. Bəzi cərəyan nümayəndələri hesab edirlər ki, ancaq məntiq gücünə arxalanaraq mütləq

həqiqətə çatmaq olar. Bunların əksinə isə mistiklər (sufilər) belə hesab edirdilər ki, bu aləmdən ayrılmaqla yalnız duyğu vasitəsilə mütləq həqiqətə qovuşmaq mümkündür. Bu baxışlara görə ilkin sufilərlə vaizlər birləşirdilər.

"Təsəvvüf" termini və onunla eyniköklü olan "mütəsəvvüf" (sufi, sufilik edən) və "sufi" sözləri haqqında bir sıra fikirlər mövcuddur. Sufi müəllifləri onu etimoloji baxımdan daha çox təmiz, pak mənasında olan "saf" kökünə aid edirlər. Avropalı alimlər isə XX əsrin başlanğıcına qədər "ət-təsəvvüf" bu sözün yunanca müdriklik mənasında olan sözdən törənməsi fikrinə meyilli olmuşlar. Z.Bünyadov yazır: "...sufi" sözünün özü (suf – yun) ərəb sözündən olmuş, hələ islamdan qabaq diyar-diyar gəzib-dolaşan (və ya dilənçilik edən) xristian rahiblərinə işarə üçün işlədilmiş, sonralar isə ilk vaxtlar yerli əhalinin gözündə öz prototipindən o qədər də fərqlənməyən ilk müsəlman zahidlərinə və ibadətçilərinə aid edilmişdir".[1]

Burada Azərbaycan ədəbi düşüncənin qaynağı kimi təsəvvüfün mənşəyi, mahiyyəti və fəlsəfi-poetik spesifikasına münasibətdə hansı baxış bucağından yanaşma da mühüm əhəmiyyət kəsb edir. Təsəvvüf elmində sufinin varlığında təcəlla tapan ruhani-poetik ovqat onun yaratdığı poeziyada poetik-ruhani ovqata çevrilərək şeirləşir. Bu haqda N.Göyüşov yazır: " irfanda estetizm əlaməti olmasaydı, bəlkə də bu təlim donuq və məhdud bir sistem şəklində qalardı. İrfan insanın zövq və qəlb dünyası, keçirdiyi daxili hisslər, həyəcanlar və mənəvi axtarışlarla bağlı olduğundan, ağıl və məntiq çərçivəsinin fövqündə dayanan ruhlar aləminə tapındığından burada şeiriyyət və estetizmə güclü bir təmayül vardır".[2]

Bu fəslin ikinci yarımfəsli **"Ədəbi-poetik düşüncə sistemində təriqət problemi və ədəbi təsəvvüfün yaranması"** adlanır.

Mücərrəd bir anlayış olan təsəvvüf təriqətlər vasitəsi ilə konkret məzmun və forma kəsb edib. Bu cəhətdən mütəsəvvüf olmaq, yaxud təsəvvüf şairi olmaq, yaxud da öz yaradıcılığında təsəvvüf ideyasını tərənnüm etmək bütün hallarda müəyyən təriqətlə bu və ya digər şəkildə bağlı olmaq əsas şərtlərdən biri idi. Təriqət ümumi mənası ilə yol deməkdir. Ərəbcə "tariq" sözündən yaranmış təriqət daha geniş mənada "metod, hal, cizgi, məzhəb" və s. mənalarını da bildirir. Təriqətlərin sayına gəlincə, bu, nisbi anlayışdır. Elə təriqətlər olmuşdur ki, onlar həqiqətən müstəqil olmuş və sayılmışlar.

---

[1]Bünyadov Z. İslam: tarix, fəlsəfə, ibadətlər. Bakı: Elm, 1994, s 115.

[2] Göyüşov N. Təsəvvüf və bədii təfəkkür. // Yaxın və Orta Şərq: dünən, bu gün, sabah, Beynəlxalq elmi konfransı, 2007-ci il, 24-25 oktyabr / Elmi araşdırmalar (elmi-nəzəri məqalələr məcmuəsi), Bakı: Bakı çap evi, 2011, s. 412.

A.Gölpınarlıya görə, "Allaha aparan yollar insanın aldığı nəfəsin sayı qədərdir" deyimi də vardır.[1]

Ümumiyyətlə, ilk mütəsəvviflər düşüncə və təcrübələrini ətraflarında toplanan insanlara öyrətməklə yanaşı, bugünkü mənada təriqətlər qurmamışdılar. Özlərinə şeyx, söhbət şeyxi və ustad, ətraflarına toplananlara da "sahib" deyilirdi. Bir təsəvvüf məktəbi sayıla bilən bu qruplar daha sonralar "təriqət" olaraq adlandırıldı.[2] Təriqətlər təsəvvüfün gerçəkləşməsinin məkan və zamanıdır. Bu cəhətdən təriqətlər bu və ya digər şəkildə bir-birindən fərqlənirdirlər.

Mövləvilərin ən böyük özəlliklərindən biri: ney, kudum, rübab kimi musiqi alətləri ilə icra edilən səma ayinidir. Səma ayini sadəcə olaraq bir rəqs deyil, o həm də olğun xoşgörüşlü tərbiyə sistemidir ki, səma ayini ilə yayılmağa xidmət edir."[3]

Azərbaycan təsəvvüfi-ədəbi düşüncəsi və təriqət problemi baxımından əhəmiyyətli məsələlərdən biri hürufilik təriqətidir. Onlar belə hesab edirdilər ki, Allah kainatı və insanı "Kon" ("Ol") əmrindən, yəni sözdən yaradıb. Deməli, söz (hərf) həm yaradılışın səbəbi, həm də elə özüdür. Çünki söz hər şeydir, o kiçik və böyük ifadələr şəklində təzahür etmişdir. Bir inanc sistemi olaraq, hürufilik müxtəlif ideya-nəzəri və dini-fəlsəfi qaynaqlara malikdir.

XII əsrin ilk sufi şairi Əhməd Yəsəvi türk dünyasında islamın yayılmasında, türklərin islamlaşmasında böyük xidməti olan təriqət qurucusu olmuşdur. Onun tərəfindən qoyulan yəsəviyyə təriqətinin yaranması sırf zamanın, dövrün tələbindən irəli gəlmişdir. S.Tural göstərir ki, türklərin müsəlmanlığı qəbulu təbii, sadə, səmimi həyəcanların yaratdığı bir inanış tərzi idi.[4] "Anadoluda təriqət şairləri vasitəsi ilə zəngin və qüvvətli təsəvvüf ədəbiyyatı qurulmuşdur".[5]

Əsl adı Süleyman olan Həkim Ata Xarəzimdə dünyaya göz açmışdır.

---

[1] Gölpınarlı A. 100 Soruda Türkiyede Mezhepler və Tarikatler. Kum: Ensariyan Yayınevi, 1969, s.188.

[2] Seyid Yəhya Əş-Şirvani əl-Bakuvi. Səfa əl-əsrar (Sufiliyin sirləri). Nəşrə hazırlayan: M.Rıhtım. Bakı: Elm, 2010, s.29.

[3] http://www.ruslit.net/preview.php?path=%u0418%u0441%u0442%www.medineweb.net/...tarikat.../Tasavvuf%20v...http://www.medineweb.net/tasavuftarikat_tarih/tasavuf/Tasavvuf%20ve%20Tarikatlar/Mevlevilik%20Tarikati/1.htm

[4] Tural S. Kültürel Kimlik Üzerinde Düşünceler. Ankara: Kültür ve Turizm Bakanlığı, 1992, s.161.

[5] Banarlı H.S. Resimli Türk Edebiyatı. İki Ciltte, II C., İstanbul: Milli Eğitim Basımevi, 1971, s. 641.

O, Əhməd Yəsəvinin müridlərindən, həm də onun üçüncü xəlifəsi olub türklər arasında çox böyük nüfuz qazanmışdır. Şairin yaradıcılığının əsas mövzuları Quran və hədislərdən qaynaqlanır. Süleyman Həkim Atanın diqqəti çəkən hikmətlərindən biri cənnət və cəhənnəmin deyişməsini əks etdirən "Var" rədifli dördlüyüdür. Şeirin məzmunundan məlum olur ki, bu məkanlar orada qərar tutan insanlarla fəxr edirlər. Bu insanlar hansı əməlin sahibi olduqlarına görə o məkanlarda qərarlaşırlar. Cəhənnəm özünün zəngin olması ilə öyünür, "mən zənginəm, məndə Firon və Harun var, cənnət isə cümlə peyğəmbərlər məndə"dir deyir.[1]

Bu fəslin üçüncü yarımfəslində **"Qədim və erkən orta əsrlər ədəbiyyatında təsəvvüfi ideya və motivlər"**dən bəhs olunur. Təsəvvüf görüşlərinin ədəbiyyatda nə vaxt yayılmağa başlaması barədə dəqiq yanaşmalar yoxdur. Bunun səbəbi həm də onunla bağlıdır ki, təqribən, XI əsrəqədərki Azərbaycan ədəbiyyatı haqqında əlimizdə materialın olmadığı üçün, konkret ədəbi nümunələrdən bəhs etmək mümkün deyildir. Əslində, insanının düşüncə aləmində, etnik psixologiyasında təsəvvüf bu adla olmasa da, insanla onun yaradıcısı (Tanrısı) arasında mifoloji-mistik münasibətin məzmunu və forması kimi islama qədər də bu var idi. Y.Qarayevin yazdığı kimi, "təsəvvüflə türk dünya duyumu arasında kəsişən, qovuşan məqamlar fəlsəfədən və klassik şeirdən əvvəl mifologiyada olub".[2]"Kitabi-Dədə Qorqud"un təsəvvüflə əlaqələndirməsi düzgün müşahidədir. Abidədə təsəvvüfün təməl anlayışları, obrazlar sistemi ilə bağlı ciddi məqamlar vardır. Məsələn, dastanda göstərilir ki, "Qanturalı cəmal və kəmal iyəsi yigit idi. Oğuzda dörd yigit üzü niqabla gəzərdi. Biri Qanturalı, biri Qaraçəkür və oğlı Qırqqınuq və Boz ayğırlu Beyrək".[3]

Tədqiqatçılara görə, Qanturalının camal və kamal sahibi olması "qazi ərən" səviyyəsini müəyyənləşdirir. "Camal və kamal" sahibi olmaq üzü niqablıların, yəni dörd oğuz igidinin, o cümlədən Beyrəyin keyfiyyətidir. Onların camal sahibi olmaları müqəddəs sayılan sifətlərini, kamal sahibi olmaları isə islami biliklərini göstərir.[4] Onu da əlavə edək ki, camal və kamal sahibi olmaq təsəvvüfi statusdur və bu mənada "Kitabi-Dədə Qorqud", əslində, Azərbaycan təsəvvüfi-islami düşüncə tarixinə şahidlik edən son dərəcə möhtəşəm bir faktı qoruyub özündə saxlamışdır.

---

[1]Mustafa S. Hakim Süleyman Ata. Hikmetler ve Kıssaler. Ankara: Oba Yayınları, 2006, s. 84.
[2] Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, s.93.
[3] Kitabi-Dədə Qorqud. Müqəddimə, tərtib və transkripsiya: F.Zeynalov və S.Əlizadə. Bakı: Yazıçı, 1988, s.87.
[4]Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004, s.89

M.F.Köprülünün qeyd edirdi ki, xalqın öz dilində, sadə xalq kütlələri arasında şifahi şəkildə yayılan dini-təsəvvüfi görüşlərdə də təsəvvüf motivləri var idi... Dədə Qorqudun özünün qeybdən xəbər verməsi, camal və kamal yiyəsi olan üzü niqablı igidlər kimi çoxsaylı təsəvvüfi obrazlar var.[1] Bunlardan başqa "Dədə Qorqud" dastanında oğuz igidlərinin yuxu görmələri kimi faktlar təsəvvüf məzmunu kəsb edir.

XII əsr Azərbaycan şairi Xaqaninin də yaradıcılığında təsəvvüf məqamlarına rast gəlirik. Şairin yaradıcılığında eşq və aşiqlik fiziki-cismani mənada anlaşılan psixoloji ovqat olmayıb, dərin təsəvvüfi-irfani məna daşıyır:

Eşq yolunda candan keçənsən, ey Xaqani!
Qədəm bu yola başdan keçən bir insan atar.[2]

Eşq yolunda başdan keçmək təsəvvüfün fəna-fillah, bəqa-billah modelinin poetik təzahürüdür. Başdan keçmək – cisimdən, bədəndən keçmək deməkdir. Öz nəfsinə hakim olub, fiziki-cismani ehtiraslarına qalib gələ bilməyənlər heç vaxt ilahi vüsala çata bilməzlər. İlahi eşqə qovuşmaq üçün Xaqaniyə görə, başdan keçmək, Füzuliyə görə, canı cananı üçün sevmək lazımdır.

Tədqiqat işinin II fəsli **"Nizami Gəncəvinin əsərlərində təsəvvüf ideyaları"** adlanır. Fəslin **"Nizami Gəncəvinin təsəvvüfi görüşləri"** adlanan yarımfəsli üç bənddən ibarətdir. Üç bənddən ibarət olan bu yarımfəsil iki əsas tezislə əlaqədardır: birincisi, Nizami Gəncəvi şerinin özünəqədərki poetik ənənələrdən bəhrələnməsi; ikincisi, Nizaminin bir şair filosof kimi öz dövrünün ədəbi fəlsəfi cərəyanlarının fövqündə durmasından bəhs olunur.

Nizami Gəncəviyə qədər təsəvvüfi ideyanın ədəbiyyata nüfuzu, başqa sözlə, təsəvvüfün ədəbi məzmun və formada ifadə ənənəsi artıq yaranmışdı. Biz təsəvvüfi simvolikanı Nizami Gəncəvinin böyük müasiri Əfzələddin Xaqaninin yaradıcılığında açıq-aşkar şəkildə görürük. Bu halda Nizami Gəncəvinin ədəbi düşüncəyə yeni ideya, orijinal poetik simvollar kimi daxil olan, ədəbiyyatı ruhani cəhətdən təzələyən təsəvvüfə biganə qalması mümkün deyildi.

Bu yarımfəslin birinci bəndi **"Sirlər xəzinəsi" poemasında təsəvvüf düşüncəsinin təqdimi"** adlanır.

Burada Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasındakı təsəvvüf məqamlarına aydınlıq gətirilib. Ümumiyyətlə, götürdükdə isə XII əsr klassik Azərbaycan şeirində təsəvvüf problemini Nizami Gəncəvidən kənarda götürmək, təhlil etmək mümkün deyildir. Təkcə ona görə yox ki, Nizami

---

[1] Köprülü M.F. Türk Saz şairləri. Ankara: Türk Tarih Kurumu Basımevi, 1962,s. 46
[2] Xaqani Ş. Seçilmiş əsərləri. Tərtib edən: M.Sultanov. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1956, s. 309.

Gəncəvi yaradıcılığı xronoloji baxımdan bizim tədqiq etdiyimiz beşəsrlik (XII-XVI yüzilliklər) ədəbi prosesin başlanğıcını təşkil edir. Sadəcə olaraq Nizami Gəncəvi əsərləri ədəbi təsəvvüfün yaranmasında və yayılmasında aparıcı rola malikdir.

Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması Avropa tədqiqatçıları tərəfindən indiyə kimi sufi-didaktik poemanın tipik nümunəsi sayılır. Şərqşünaslar "Sirlər xəzinəsi" poemasını Sənainin "Hədiqətül-həqayiq"ə nəzirə hesab edirlər. "Hədiqqətül-həqayiq" sırf mistik məzmuna malikdirsə, onda Nizami Gəncəvinin poeması da belə olmalıdır.[1] Göründüyü kimi, "Sirlər xəzinəsi"ndə təsəvvüfi simvolların bəzən çox açıq şəkildə işlədilməsinə baxmayaraq, ümumən əsərdəki fəlsəfi sistem çox mürəkkəb tərkibə və mahiyyətə malikdir. Əsəri bu cəhətdən tədqiq etmiş R.Əkbərov göstərir ki, "Sirlər xəzinəsi" mətndir. Mətn düşüncəni gerçəkləşdirən obyekt deməkdir. "Sirlər xəzinəsi" bir mətn olaraq Nizami düşüncəsini reallaşdıran obyektdir. Yaxud başqa cür desək, poema Nizami dünyagörüşünü bədii sözlə kodlaşdıran mətndir. Bu baxımdan, sufizmlə "Sirlər xəzinəsi"nin arasında Nizaminin yaradıcı subyekti dayanır. İstər təsəvvüfi dünyagörüşü, istərsə də digər dünyagörüşlər poemaya Nizami düşüncəsindən keçməklə daxil olur. Deməк, təsəvvüf mütəfəkkir Nizaminin düşüncəsində onun subyektiv düşüncə materialına çevrilir. Nizaminin "Sirlər xəzinəsi"ni araşdıran mütəxəssislər də poemanı sırf sufi-mistik əsər sayanlarla ona görə razı deyillər ki, onda olan sufzm klassik sufizm deyildir.[2]

"Sirlər xəzinəsi"ni Allahın adı ilə başlayan Nizami Gəncəvi onu varlıq aləminin sirlərinin hikmət xəzinəsinin açarı hesab edir: "Nizami ilk dəfə olaraq Allah kəlamını şeir qəlibində işlətmişdir. Burada işlənən "gənci-həkim" (hikmət xəzinəsi) ifadəsi həm Allaha, həm də Qurani-Kərimə aiddir; Allahın və Quranın adlarından biri "həkim"dir.... Yəni həm Quran, həm də hikmət xəzinəsi Allahın adı ilə açıla bilər".[3]

Şəfqətli, ədalətli Tanrının adı ki var,
Hikmət xəzinəsini açan açardır, açar.

Nizami Gəncəvinin Allah haqqında idrakı düşüncələrində təsəvvüf

---

[1] Бертельс Е.Э. Политические взгляды Низами / Выдающиеся русские ученые и писатели о Низами Гянджеви. Баку: Язычы, 1981, с. 21-27

[2] Əkbərov R. Nizami Gəncəvinin fəlsəfi-didaktik görüşləri. Bakı: ütərcim, 2008, s.20 alıdır.

[3] Quliyeva M. Nizaminin "Sirlər xəzinəsi" və Quran üslubu / Filologiya məsələləri. № 4, Bakı: Elm və təhsil, 2013, s.282.

fəlsəfəsinin varlığa baxışları da öz ifadəsini tapmışdır. Öz varlığını Allahın qüdrətinin sübutu hesab edən Nizami Gəncəvi "canını vəhdət tarlası, könlünü vəhdət gülzarı" adlandırır: "Qüdrətinə sübutdur Nizaminin varlığı, Canı – vəhdət tarlası, könlü – gülüzarlığ,[1] - deyən şair beytin birinci misrasında ilahi yaradılışdan bəhs edir.

Nizami Gəncəvi ortodoksal müsəlman kimi insanı – Adəm övladını Allahın qüdrətinin təcəllası hesab edir. S.Hacı yazır: "Qurani-Kərim hz.Adəmi (s.a.s) "əbul-bəşər" adlandırır, onun bu insan növünün atası olduğunun bildirir. Deməli, insan cinsi o modeldən, o fitrətdən törəmişdir".[2]

Tədqiqatçılar "Sirlər xəzinəsi" əsərində sufizmdən danışarkən, əsasən, əsərin əvvəlindəki "xəlvətlər"ə işarə edirlər. Nizami Gəncəvi insanı qəflətdən ayılıb vəhdət gülüzarı olan könül dünyasını tanımağa çağırır: "Könül quldurlarından qurtar öz yaxanı sən, Dünyan – könül dünyası, bu dünyanı tanı sən".

Gecəyarısı könlü ilə təkbətək qalan Nizami "seyri-süluka" çıxır. Ruhunun uçuşu ilə gördüyü mənzərə onu heyrətə gətirir, "Çövkənin ağacı da, topu da öz canımdı, Qanad verib uçuran sonsuz həyəcanımdı.[3]

Nizaminin "gecə xəlvətdə" keçirdiyi bu hal təsəvvüfdəki "seyri-süluk"un bədii təsviridir. Hal məqamına girən şair öz könlündə təcalla edən həqiqəti niqabsız görür. Arınmış qəlbin gördüyü gözəlliklər bir gözəl obrazı kimi təqdim edilir. Nizaminin öz iç dünyasında – könlündəki səfəri başa çatır.

Göründüyü kimi, Nizami varlıq aləminə – kainata səfərə çıxır. Lakin bu səfər onun öz can dünyasında gerçəkləşir. Bu haqda tərdqiqatçı S.Hacı yazır: "…insan varlığının (ölkəsinin) baş şəhəri, Kəbəsi qəlbdir, insanın vəzifəsi qəlbin nəfsin əsarətindən azad etmək, təmizləməkdir, ruhu onun sultanı seçməkdir, bədəninin idarəçikliyini düşünən qəlbə təskil etməkdir. İnsanın öz varlığına hakim, ağlına ağa, bədəninə malik, aləmə sultan olmasının şərti arınmış qəlbə qul olmaqdır".[4]

Bu yarımfəslin ikinci bəndi **"Xosrov və Şirin", "Leyli və Məcnun" poemasında təsəvvüf bir vasitə kimi"** adlanır. Nizami Gəncəvi bu eşq dastanını yaratmaqla "Xosrov və Şirin" mövzusunu tamamilə yeni poetik konsepsiyada təzələmək istəmişdir. "Xosrov və Şirin" bir eşq dastanıdır.

---

[1] Gəncəvi N. Xosrov və Şirin. Filoloji tərcümə, izah və qeydlər Həmid Məmmədzadənindir. Bakı: Elm, 1981, s.21.

[2] Hacı S. Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı ilk dörd məqalənin şərhi (6-cü kitab.) Bakı: Nafta-Press, 2013, s.110.

[3] Gəncəvi N. Sirlər xəzinəsi. Fars dilindən tərcümə edənlər Süleyman Rüstəm və Abbasəli Sarovlu. Bakı: Yazıçı, 1981, s.53.

[4] Hacı S. Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı V-IX məqalənin şərhi (7-ci kitab). Bakı: Nafta-Press, 2014, s. 197.

“Eşqdən başqa söz könlümə yaddır, ömrümün quşuna sevgi qanaddır[1], - deyən şair könlünün eşqlə abad olması, başdan-başa “eşq” sözü ilə süslənməsi, yəni “eşq”in bir işarə vahidi kimi Nizaminin könül dünyasının məna rəngi kimi çıxış etməsi bizim yadımıza şairin  Yada salaq ki, Nizami Gəncəvinin birinci poemasında haqqında danışılan xəlvətlər sənətkarın öz könlündə keçirdiyi “seyri-süluk” halının təsviridir. İndi buradan da məlum olur ki, sənətkarın könlündə eşqdən başqa bir şey yoxdur. Sufizmdəki “seyri-süluk” da elə eşq halının təsviridir. Sufi Allaha olan eşqi ilə seyri-süluk halına daxil ola bilir.

Şair “Eşqdir mehrabı uca göylərin, eşqsiz, ey dünya, nədir dəyərin? deyə, ritorik sualla dünyaya-oxucuya müraciət edir edir. Hamiya bəllidir ki, mehrab-məsciddə qibləni bildirən tərəfdir. Dindarlar məsciddə üzü mehraba-qibləyə tərəf durub namaz qılırlar. İnsanların namaz qılarkən üzü qibləyə durmaları öz dualarını qibləyə yönəltmələri və Allahdan gələn yaşam enerjisini üzü mehraba tərəf duraraq almaları deməkdir. Mehrab namazı, insanın cismi və ruhu ilə qibləyə köklənməsini nəzərdə tutur. Göylərin mehrabının eşq olması isə bütün kainatın eşqə könsentrasiya olunması, göylər aləminin varlığının eşqdən başlanması və eşqə çevrilməsi deməkdir.  Bu, sufi-panteist görüşlərin bədii-məcazi şəklidir. Panteizmdə ilahi təbiət insanda təcəssüm olunur və insan öz təbiəti ilə Allaha qayıdır.

Nizami Gəncəvinin “eşq” konsepti ilə “mehrab”ı birləşdirməsi Allah, təbiət, insan münasibətlərinə sufiyanə yanaşma deməkdir. Çünki “mehrab” dini anlayışdır: Allaha ibadəti, ilahi köklənməni bildirir. “Eşq”in “mehrab”la, yəni Allahla əlaqələndirilməsi təsəvvüfi-panteist dünyagörüşünün əsasını təşkil edir. “Eşqin qulu ol ki, doğru yol budur, ariflər yanında, bil, eşq uludur”,[2]deyən şair eşqin “doğru yol” hesab olunması ideyasını birbaşa sufizmə ünvanlayır: təsəv-vüfdə yaşamın mənası, mahiyyəti, üsulu, forma və məzmunu yalnız eşq yolundan ibarətdir. Burada “yol” dedikdə eşq “təriqinin”, yəni sufilərin “Şəriət-Təriqət-Mərifət-Həqiqət” kamilləşmə sxeminin ikinci pilləsi olan Təriqətin nəzərdə tutulması beytin ikinci misrasındakı “ariflər” məqamı  ilə birbaşa təsdiq olunur. Arif həmin kamilləşmə sxeminin üçüncü, yəni Mərifət mərhələsində olan sufidir. Bu cəhətdən Nizami öz eşq konsepsiyasını bu beytdə birbaşa, açıq şəkildə və sufizmin təməl anlayışlarından istifadə etmək-lə məhz təsəvvüfi  mənada götürmüşdür. Şair daha sonra deyir: “Bu dünya eşqdir, qalan fırıldaq, Eşqdən başqa şey boş bir oyuncaq”. Burada isə sufizmin kamilləşmə mərhələsi nəzərdə tutulmuşdur. Çoxmənalı məcazlar

---

[1] Gəncəvi N. Xosrov və Şirin. Tərcümə edən: Rəsul Rza. İzahların müəllifi: M.Sultanov. Bakı: Yazıçı, 1982, s. 49.

[2] Gəncəvi N. Xosrov və Şirin. Tərcümə edən: Rəsul Rza. İzahların müəllifi: M.Sultanov. Bakı: Yazıçı, 1982, s. 49.

yaratmağa qabil olan Nizami beytdə Həqiqət məqamının birbaşa adını çəkməmiş, onu Şərq-müsəlman düşüncəsinin əsas anlayışları vasitəsi ilə təcəssüm etdirmişdir. Məlumdur ki, islam düşüncəsində varlığa ontoloji münasibət dildə "varlıq-heçlik", "fani dünya-baqi dünya", "yalan dünya-həqiqi dünya" ikili modellərlə ifadə olunur.

Sənətkara görə eşq yaradılışın əsasını, canını – ruhunu təşkil edir. Kainat bütöv bir sistemdir. Bu sistemin bütün elementlərini birləşdirən və hərəkətə gətirən eşqdir. Bu da öz sırasında varlığa birbaşa sufi-panteist münasibətin ifadəsidir.

Bu misralarda eşq sufi varlığının mövcudluq modeli kimi götürülmüşdür. Sufilər öz varlıqlarını ilahi eşq yolunda bir şam kimi yandırır və həyatlarının mənasını bunda görürdülər. "Eşq yanğısını" dünyada olan zövqlərin ən yüksəyi hesab edən Nizami, ümumiyyətlə, dünyanın mənasını eşqə bağlayır. Təbiət eşqlə canlanır (güllərin açması, buludlardan yağış yağması)və öz varlığını eşqlə sürdürür.

Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının əvvəlində anasının ölümündən, az qala, başını itirən şair saqiyə müraciət edərək deyir:

Saqi! Şərab ver ki, mənzil uzaqdır,
Xəyalım bu yolda yorulacaqdır.
Bir şərab gətir ki, başa şur gəlsin,
Hər addım başında min baş yüksəlsin.

Şübhəsiz ki, burada saqidən istənilən şərab insanın ağlını başından aparan, onu cahilliyə, ədəbsizliyə sövq edən adi içki yox, sufilərə ilham verən, onları mərifətə- elm, bilik, irfan aləminə yüksəlmək üçün istifadə etdikləri rəmzi simvol- obrazdır. Nizami bu şərabı içməklə uzaq bir mənzilə – Məcnunun Leyliyə olan eşqi vasitəsilə Həqiqət aləminə səfər etmək, bu yolda şur (şüur – X.H.) etmək – mərifət kəsb etmək, hər addımda bir yox, min başla düşünmək, yəni yüksək əqli məqamlara ucalmaq istəyir. Göylərin mehrabının eşq olması isə bütün kainatın eşqlə nizamlandığını, eşqin göylər aləmindən başlanması və yerdə ilahi, ülvi bir hissə çevrilməsi deməkdir. Bir sözlə, ilahi təbiət insanda təcəssüm olunur və insan öz təbiəti ilə Allaha qayıdır.

"Leyli və Məcnun" poemasını klassik şərq poeziyasının öz bədii-estetik prinsiplərindən çıxış etməklə dəyərləndirən M.Ə.Rəsulzadə əsərdə təcəssüm olunmuş eşq konsepsiyasını birbaşa təsəvvüfi- irfani görüşlərlə əlaqələndirmişdir. O yazır ki, Nizaminin təsvir etdiyi Məcnun özünü idealına tamamilə vəqf etmiş səmimi və fədakar idealist simvoludur. Aşiq – mömin ya mücahidin, məşuq – Allah və ya idealın timsalıdır. Qeys - Məcnun dedikləri, özündən keçən bir mömin, bir mücahiddir. Fəna-fillahın və ya ideal vurğunluğun timsalıdır. Məhviyyat və fədakarlığın dəlicə bir ifadəsi olan bu kimi rəmzli

hallar Məcnun tərəfindən türlü şəkillərdə göstərilmişdir. Məsələn bir kağıza Leyli ilə Məcnun rəsmlərinin bərabər cızıldığını görüncə, Məcnun həmən Leylini silir. Səbəbini sorurlar. Biz iki deyilik, birik, - deyir. O halda nədən özünü deyil də onu silirsən? Çünki o ruhdur, mən – qəlibəm, ruh qəlbdə örtülü olur.[1]

Təsəvvüf əhli Şəriətdən Həqiqətə ucalıq yolunda vücudunu – maddi varlığını əridir, fəna-fillahdan keçir, bəqa-billaha yetmək istəyir. Şərab bu yolda ilahi vəhdətə yetişmək üçün vasitəsidir. Sufilərin şərabı onları kamal- idrak – mərifət məqamına yüksəldirdi. Vücudunu unutmaq istəyən Nizami də saqidən onu məst edən yox, ayıldan şərab istəyir: "Bir şərab gətir ki, başa şur gəlsin, hər addım başında min baş yüksəlsin,[2]deyən şair bu şərabı içməklə uzaq bir mənzilə – Məcnunun Leyliyə olan eşqi vasitəsilə Həqiqət aləminə səfər etmək, bu yolda şur (şüur – X.H.) etmək – mərifət kəsb etmək, hər addımda bir yox, min başla düşünmək, yəni yüksək əqli məqamlara ucalmaq istəyir. Vücudunu unutmaq istəyən şair də saqidən onu məst edən yox, ayıldan şərab istəyir:

Poemada Leylinin eşqi ilə ağlayıb sızlayan Məcnun ona qovuşmağın mümkün olmadığın görüncə paltarlarını cırıb-dağıdır: "Cırdı köynəyini, lüt qaldı bədən, dedi ki: ölmüşə nə lazım kəfən?"[3] deməklə, Nizami Məcnunu və özünü "bu iki aləmə sığmayan kəs" adlandırır. Məcnun özündə özünü dərk etmiş, özündə Allahı dərk etmiş, özündə ilahi başlanğıcı dərk etmiş insandır. Ona görə də paltarlarını cırıb atır. Bu paltarlar maddi dünyanın simvolu olan zahiri görüntülərdir. Məcnun yalnız maddi dünya səviyyəsində, yəni bir diri insankən bu paltarları qəbul edir. İndi o, özünü ölmüş, yəni ruhu ilə bu dünyanı tərk etmiş sayır. Maddi dünyanın fövqünə qalxan ruha isə maddi görüntü – zahiri bəzək lazım deyil.

Sufizmdə hərflər Allahın maddi aləmdə təcəllasının qrafik simvolları sayılırdı. Sufi şairlər bu simvollardan irfani ideyaların təcəssümündə istifadə edirdilər. Poemada Məcnunun səhradakı həyatının təsvir edildiyi səhnədə bunun maraqlı təzahürünə rast gəlirik: "Qatlandı dizlərim qoşa "lam" kimi, Yey kimi bükmüşəm öz əllərimi".[2] Mübariz Əlizadə bu misraları şərh edərək yazır ki, ərəb əlifbasında "l" çəngəl şəklində yazılır və "lam" adlanır. "Y" hərfi isə qarmaq şəklində yazılır, "yey" adlanır. Məcnun deyir ki, mən dərd əlindən dizlərimi iki "lam" kimi qatlamışam, qollarımı isə iki "yey" kimi bükmüşəm və bunların birləşməsindən sevgilimin adı,

[1] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Təknur, 2011, s. 179.
[2] Gəncəvi N. Leyli və Məcnun. Tərcümə edəni: Səməd Vurğun. Bakı: Yazıçı, 1983, s. 67
[3] Gəncəvi N. Leyli və Məcnun. Tərcümə edəni: Səməd Vurğun. Bakı: Yazıçı, 1983, s. 91-95

yəni “Leyli” əmələ gəlmişdir.”[1]

Beləliklə, Məcnun öz bədəni ilə “Leyli” sözünü yazmışdır. Burada yazı – ilahi tale, proqramlaşdırılmış informasiya deməkdir. Özünü artıq maddi dünyada ölmüş hesab etdiyi üçün pal-paltarlarını cıran Məcnun indi bir ruh vəziyyətindədir. Öz bədənini Leyli formasına salan Məcnun bu halda sanki Leyliyə qovuşmaqdadr. Təsəvvüfdə bu, sən və mən anlayışlarının itməsi, varlığın bütün təzahürlərinin onların maddi obraz və təbii keyfiyyətlərindən asılı olmayaraq, Vahiddə qovuşması, təcəssüm olunması deməkdir.

Nizami Gəncəvinin “Leyli və Məcnun” poeması ilə bağlı ayrıca tədqiqat aparmış Ç.S.Sasani yazır ki, “Nizami əsərində olduğu kimi, dastanın folklor variantlarında da heyvanlar Məcnuna mütidir. Məcnundakı bu ilahi qüdrəti heyvanlar hiss edib biri-birilə dost olurlar, çünki onlar öz hamilərinin tam ixtiyarındadırlar… Deməli, əsatirdə ilahi bir qüdrət kimi cilvələnən Məcnun obrazını Nizami sufi dona salmaq üçün böyük imkanlara malik olmuşdur”.[2]

Bu yarımfəslin üçüncü bəndi **“Yeddi gözəl” poemasında mənəvi kamilləşmə: təsəvvüfin mərhələ modeli”** adlanır. Nizami Gəncəvinin “Yeddi gözəl” poemasında sufi ideya və motivlərindən istifadənin fərqli şəkilləri ilə qarşılaşırıq. Nizami poemada vəhdəti-vücuddan – varlıq aləminin müxtəlif ünsürlərinin Vahiddə qovuşması sxemindən istifadə edərək dərin mənalı bədii-fəlsəfi simvollar yaratmağa nail olmuşdur.

Nizami Gəncəvi Bəhramın simasında sufilərin şəriət-təriqət-mərifət-həqiqət dördmərhələli kamilləşmə yolu ilə gedən aşiq-qəhrəman obrazını yaratmasa da, bu dördmərhələli kamilləşmə sxemindən, modelindən yetərincə istifadə edərək tamamilə yeni tipli qəhrəman yaratmışdı.

Göründüyü kimi, Nizami Gəncəvinin Yeddi rəngdə çalan sarayı varlıq aləmini birləşdirən, qovuşduran simvol-işarədir. Bu simvol-işarə birbaşa vəhdəti-vücud ideyası ilə bağlıdır. Vəhdəti-vücud nəzəriyyəsində varlığın bütün ünsürləri vahiddə qovuşduğu kimi, Yeddi peykər sarayında da dünyanın bütün ünsürləri vahid bir işarədə bir-birinə qovuşmuşdur. Biz bu sarayda bir-birinə qovuşmuş varlıq ünsürlərinə diqqət etsək görərik ki, mövcudatın elə bir ünsürü qalmır ki, sarayda öz təcəssümünü tapmasın:

Ədəbiyyatşünas alim R.Əliyevin dediyi kimi, “Nizami Gəncəvinin “Yeddi gözəl” poemasındakı nağıllar kamil insan konsepsiyasına xidmət edir. Onların hamısı Qurandan gəlir. Nağılların hamısı sufilərin mənəvi-

---

[1] Gəncəvi N. Leyli və Məcnun. Filoloji tərcümə, izahlar və qeydlər Mübariz Əlizadənindir. Bakı: Elm, 1981, s.296

[2] Sasanian Ç. Nizaminin “Leyli və Məcnun” poeması. Bakı: Elm, 1985, s.43

əxlaqi təkmilləşmə olan 7 pillәlik tәriqәt mərhələsinin əsas ideyalarını özündə əks etdirir”.[1]

Nizami Gəncəvinin “Yeddi gözəl” poeması haqqında ayrıca tədqiqat aparmış S.Rzasoy əsərdə sufizmdən istifadə haqqında yazır ki, Nizami Bəhramın simasında klassik sufi obrazı yaratmamışdır. Sufilikdəki insanın kamilləşmə modelinin nəzəri-texniki elementlərindən istifadə edən şair bu prosesdə çağın paralel dünya modellərindən (başqa fəlsəfi dünyagörüşü və təlimlərindən – X.H.) də istifadə etmiş və mahiyyətcə orijinal bir obraz yaratmışdır. Bu obraz bütün çoxluq təşkil edən sufi cizgiləri ilə bərabər, heç də klassik sufi modelinin verə biləcəyi obraz-variant deyildir. Bu, özünü sufilərin Allahla mistik ünsiyyətə girməyin mümkünlüyünə münasibətdə bilindirir. Sufilərin keçdiyi yolla gedən Bəhram yolun sonunda heç də mistik ünsiyyət feyzi ilə yaşayan qəhrəmana çevrilmir. Nizami onun belə bir əlaqə qabiliyyəti qazanmasına dair heç bir işarə vermir. Nizami Bəhramın yolunun Fəna və Bəqa pillələrinin təqdimində merac arxetipinin sufi yox, klassik (dini – X.H.) formasına əsaslanır: Bəhram bir dəfə ölür və Allaha qovuşmaq üçün yeganə imkanı bu ölümlə əldə edir. Lakin bu fərqlərə baxmayaraq, Nizami Bəhramı əxlaqi-idraki kamillik, ədalətli insan, mütləq xeyir və Allah ədalətinin daşıyıcısı məqamlarına məhz sufi yolu ilə çatdırır. Bu, bir daha göstərir ki, Nizami Bəhramı mürəkkəb yaradıcılıq təfəkkürünün məhsulu olan çoxqatlı obrazdır.[2]

Nizami Gəncəvini özünəqədərki mədəni irsin bütün mütərəqqi ideyaları cəlb etsə də, o öz yaradıcılığında məqbul bildiyi ideyalardan istifadə edirdi. Lakin müşahidələr göstərir ki, Nizami sufizmdən yaradıcı şəkildə istifadə etmiş, yəni süfi görüşləri ona öz ideyalarını vermək üçün bir vasitə rolunu oynamışdır, ancaq şair heç vaxt sufi ideyalarının tam təsiri altına düşməmişdir.

Bu fəslin ikinci yarımfəslində **“Nizami Gənəcəvi təsəvvüfünün türk dünyasına təsiri”**ndən bəhs olunur. Böyük Nizami Gəncəvi yaradıcılığı özündən sonra yaranan bütün xalqların ədəbiyyatına təsir göstərmişdir. Bəzi şairlər onun yaradıcılığından təsirlənərək “Xəmsə” yaratmış, bəzi sənətkarlar isə onun kimi lirik qəzəllər yazmışlar. Onun təsiri Türk dünyasının böyük mütəsəvvüf şairi Yunus Əmrənin yaradıcılığından da təsirsiz ötməmişdir.

XIII əsr türkdilli ədəbiyyatda ilk didaktik məsnəvi olan “Risalətün

---

[1]Əliyev R. Nizaminin “Yeddi gözəl” poeması (ön söz) / N.Gəncəvi. Yeddi gözəl. Tərcümə edən Məmməd Rahim. Bakı: Yazıçı, 1983, 358 s.
[2]Rzasoy S. Nizami poeziyası: Mif-tarix konteksti. Bakı: Ağrıdağ, 2003, s. 198.

nüshiyyə" Nizami Gəncəvinun "Sirlər xəzinəsi"nin təsiri ilə yazılmış əsərdir. Bu əsər Yunus Əmrənin fəlsəfi dünyagörüşünün mahiyyətini, əksi türk inam tərzini, həyata baxışını, dünya, yaradılış, kainat, varlıq, həyatın mənasını rəmz və simvollarla əks etdirən bir təsəvvüf məzmunlu əsərdir. Əsərin türk dilində ilk didaktik məsnəvi olmaq baxımından Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri var. Türk ədəbiyyatşünaslığında bu əsər haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçılar – F.Köprülüzadə "Yunus bu əsəri yazarkən İran mütəsəvvüf şairlərindən ilham almışdır.[1] deyirdisə, N.S.Banarlı isə "Yunusun bu əsəri nə Əttarın, nə də başqa şairlərin əsərlərindən mülhəm yazılmışdır" deyirdi.[2]

XIII əsrdə farscanın hökm sürdüyü bir dövrdə, təlatümlər içərisində boğulan türk dünyasının yetişdirdiyi bu dahi sənətkar türkcənin gözəlliyini yaratdığı əsərlərində ortaya qoya bilmişdi. O dövrdə Yunus Əmrənin bu əsəri sadə, aydın türkcədə qələmə alması, XXI əsr insanının anlayacağı bir tərzdə, əruz vəznində yazıb- yaratması türk dilinin geniş imkanlarından xəbər verir.

Böyük Nizami Gəncəvi bütün əsərlərində hökmdarları ədalətə səsləyib, onlara əsərlərindəki hekayətlərlə ibrət dərsi verirdisə, Yunus Qurani-Kərimdən gətirdiyi qissələrlə pis əməl sahiblərinin başına nələrin gəldiyini, onlardan ibrət götürmələrini yadlarına salırdı. Şairlər də peyğəmbərlər kimi Allahın yerdəki elçiləridir. Onlar da insanları haqq yoluna yönəltmək üçün Allah-təala tərəfindən seçilərək böyük dəyər verilmiş insanlardır.

Yunus Əmrə "Risalətün-nüshiyyə" əsərini insan varlığının dərkinə həsr etmişdir. O bu risaləsi ilə insan xislətini tanımaq, islami qaydalar əsasında onu tərbiyələndirməyi qarşısına məqsəd qoymuş və onun yollarını göstərmişdir. Müəllif insan xislətinin iki varlıqdan – ruh və cisimdən yoğrulduğunu, "rəhmani və şeytani", bunların da hər birinin insan qəlbinə hakim olması üçün daima apardığı mübarizədən söz açır.

Yunus Əmrənini XIII əsrdə qələmə aldığı "Risalətün-nüshiyyə" məsnəvisi bir öyüd, nəsihət kitabıdır. Risalə ilə biz həm də unudulmaqda olan bəzi məqamları yenidən yada salmış oluruq. Bu haqda tədqiqatçı yazır: "Bu örnəklər əgər bir tərəfdən şairin şeirlərinə yeni bir biçim, xəlqi ruh vermişsə, digər tərəfdən həmin nümunələr özləri də Yunus Əmrə şeiri ilə qorunub qalmışdır. Deyək ki, bu cəhət daha dəyərlidir. Biz bu yolla bir sıra folklor örnəklərinin əski çağ varlığı ilə də tanış olmaq imkanı əldə etmiş oluruq." [3]

---

[1] Köprülü M.F. Türk Edebiyatında İlk Mutasavvıflar. Ankara: Türk Tarih Kurumu Basımevi, 1976, s. 293.
[2] Banarlı H.S. Resimli Türk Edebiyatı. İki Ciltte, II C. İstanbul: Milli Eğitim Basımevi, 1971, 641-1366 s.
[3] Göyüşov N. Təsəvvüf və bədii təfəkkür. / Yaxın və Orta Şərq: Dünən, Bu gün,

Bu risalənin əsas ideyası insan qəlbində Allah sevgisi yaratmaqla onun qəlbini fitnə-fəsadlardan təmizləmək, Allahın birliyini və bu aləmin onun iradəsi ilə idarə olunmasını insanlara başa salmaqdır. Əsər həm də türk dilinin geniş imkanlara malik olduğunu göstərməklə, bu dildə böyük əsərlərin yaranmasının mümkünlüyünü də ortaya qoydu. [1]

Tədqiqat işinin III fəslində **"XIII-XIV əsrlərdə anadilli poeziyada təsəvvüfi ideyaların yayılması"**ndan bəhs olunur. Bu fəsil dörd yarımfəsildən ibarətdir.

Bu fəslin birinci yarımfəsli **"Şeyx Səfiəddin Ərdəbilli və İzzəddin Həsənoğlunun təsəvvüf məzmunlu şeirləri"** adlanır. Bu yarımfəsildə ana dillində yaranan şeirlərin təhlili verilir və onların əsasında təsəvvüfün inkişaf dinamikasından danışılır.

Ana dillimizdə yaranan poeziyanın inkişafından danışarkən XIII əsrdə yaşayıb-yaratmış səfəviyyə təriqətinin qurucusu Şeyx Səfiəddin Ərdəbillidən söz açmamaq mümkün deyil. Öz dövründə mömün bir təsəvvüf əhli kimi tanınan Şeyx Səfiəddin Ərdəbilli ana dilimizdə yaranan poeziyanın inkişafında böyük rol oynamışdır.

Şeyx Səfiəddinin "Qara məcmuə"sində diqqəti çəkən şeirlərdən biri də "Mövzun-mövzun" rədifli şeiridir. Sadə, aydın, anlaşıqlı bir dildə yazılan şeir türk dilinin geniş imkanlara malik olduğunu göstərir. Bu şeirlər bir daha təsdir edir ki, XIII əsrdə Asərbaycan-türk dili şeir-sənət dili olmuş, yuxarı təbəqələrin danışıq dili funksiyasını yerinə yetirmişdir.

Şairin gözəl lirik şeirləri var, bu şeirlər həm poetikası, həm məzmunu, həm də forması cəhətdən o dövr üçün xarakterik olmuşdur. Şeirlərinin birində şair deyir:

Qoydu üz könlümə qəm ləşkəri hamun-hamun,
Qara baydağlı ələmlər ucu gülgün-gülgün[2].

Şeir müasir oxucunun tam anlayacağı bir dildə yazılmışdır. Şeirin sonundakı təkrarlar ona xüsusi bir ahəng verir, onda bir oynaqlıq, ritm yaradır. Biz belə şeir nümunələrinə Qazi Bürhanəddin divanında rast gəlmişik. "Şeirlərinin dili o qədər sağlam, axıcı və danışıq dilinə yaxındır ki, bu gün çağdaş şeirimizdə dil teorisinin hədəflərindən sayılan kütlə danışığına yaxınlıq mərtəbəsində hesab oluna bilər."[3]

---

Sabah, Beynəlxalq elmi konfransı, 2007 -ci il, 24-25 oktyabr / Elmi araşdırmalar (elmi-nəzəri məqalələr məcmuəsi), Bakı: Bakı çap evi , 2011, s.2

[1] Yunus Ə. Risalətün-nüshiyyə. Hümmətova X. Ön söz. Bakı: Elm və təhsil, 2013, s. 3-36.

[2] Şeyx Səfiəddin Ərdəbili. Qara məcmuə. İslam Qəribli. Ön söz. Bakı: Elm, 2004, s.19

[3] Yenə orada, s.12

Şeyx Səfiəddinin "Qara məcmuə"sində nəzmlə yazılan hissələrdən başqa, nəsrlə yazılmış irfani məqamları özündə əks etdirən hekayətlər də var. İbrətamiz mahiyyət daşıyan bu hekayətlərin hər biri insanı oxuyub ondan ibrət götürməsinə xidmət göstərən həyat hekayətləridir. Bu hekayətlər Nizaminin "Sirlər xəzinəsi"ndəki hekayətlərlə üst-üstə düşür.

Azərbaycan ədəbiyyatı tarixində anadilli şerin əsası XIII əsrin şairi Həsənoğlunun adı ilə bağlıdır. Əlbəttə, Həsənoğlu birdən-birə belə dolğun məzmunlu, ahəngdar şeir yarada bilməzdi. Onun bir neçə şeiri şairin böyük bir məktəb keçib gəldiyindən xəbər verir, yəqin ki, ondan əvvəl də türk dilində şeir yaradan sənətkarlar olmuşdur. Ancaq əsərləri günümüzə qədər gəlib çatmayıb. Fuad Köprülü Həsənoğlunu dövrünün məşhur sufilərindən olan Şeyx Camal Zakirin müridlərindən olduğunu yazır.[1]

Bu tədqiqat işində Həsənoğlunun "Necəsən gəl, ey üzü ağım bənim"[2] misrası ilə başlayan qəzəlinin ilk növbədə diqqəti çəkən cəhətlərdən biri şeirin dilinin sadə, axıcı və anlaşıqlı olmasıdır. Qəzəl 9 beytdən ibarətdir.

Bu qəzəldə sevgilisinin məhəbbətindən ürəyinin yağını əridən aşıq obrazı ilə qarşılaşırıq. Məhəbbət əzabından odlara yanan aşiq başqasını sevməyəcəyinə and içir. Sevgilisi ilə hər anının xoş keçdiyini vurğulayaraq deyir: "And içərim səndən artıq sevməyim, sənin ilə xoş keçər çağım mənim", deyən şair qəzəlin üçüncü beytdə sevgilisinin gözəllər içərisində ona bənzərinin, ona tay olmadığını deyirsə, sonrakı misrada bu qədər gözəl olmasına baxmayaraq, "könlü alçağım mənim" deməklə, onun gözəl olduğu qədər də sadə olmasına işarə edir: "əsli yuca, könlü alçağım mənim" deməklə şair eşqin ilahi anlamdan olmasına bir işarə edir və məhəbbətin ilahi bir hiss olduğunu oxuculara bir daha xatırladır. Bildiyimiz kimi, Tanrı bu kainatı yaratmamışdan əvvəl "ilahi eşqin" olduğu fikrini Həsənoğlunun qəzəlində də vurğuladığını görürük.

Qəzəlin məqtə beytində ənənəvi olaraq şair Həsənoğlu təxəllüsündən istifadə edir. Özünün də məşuqənin cismindən yarandığını, onunla eyni varlıqdan, fitrətdən yoğrulduğunu söyləyən şair son misrada məşuqənin onu tərk etməməsini istəyir. Təsadüfi deyil ki, bəzən sevgilisinin qapısının ağzı insan üçün ən böyük dəyərlərdən biri olan vətənlə eyniləşir və bu zaman lirik qəhrəman həm də vətənpərvər bir qəhrəmana çevrilir. "[3]

Həsənoğlunu türkdilli poeziya məkanında məşhurlaşdıran, ona şöhrət

[1] Köprülü F. Azərbaycan ədəbiyyatına aid tədqiqlər. Bakı: Sabah,1996, s.13
[2] Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. III c. XIII-XVI əsrlər Azərbaycan şeiri. Tərtibçi Cahangir Qəhrəmanovdur. Bakı: Elm, 1984, s.25
[3] Vəfalı A. Füzuli öyrədir. Bakı: Gənclik, 1977, 148 s.

çələngi kimi ölməzlik bəxş edən “Apardı könlümü...”[1] adlı qəzəli məna semantikası baxımından sufiyanə görüşlərini əks etdirən bir qəzəldir.[2] Şairin bu qəzəlində hadisələr getdikcə fəlsəfi bir məzmun alır və sufi görüşlərinin poetik ifadəsinə çevrilir. Şair aşiqi sevgilisi ilə şərab məclisində təsvir edir. Şair badədən şərab tökərkən çıxan səsdən məharətlə istifadə edərək, vüsal qəminin həsrətini olduqca təbii və orijinal bir poetik formada təqdim edir. Qəzəlin geniş təhlilini verən Ə.Səfərli düzgün olaraq üçüncü beytdən başlayaraq şeirdə sufi görüşlərin üzə çıxardığını deyir: “Üçüncü beytdən isə aşiq elə bil ki, sevdiyi şəngül badədən ayrılır, qülqül sevinclər haradasa uzaqlarda qalmışdır. Ancaq sevgilisi ilə içdiyi badə onun başından getməmişdir. Yəni, hələ sərxoşdur. Bu ideal, məslək, əqidə, məhəbbət badəsidir.”[3] Bununla bağlı: “Şərab” ifadəsindən beytə daxil olmaq üçün açar kimi istifadə etsək, onda məlum olar ki, şairin həsrətini çəkdiyi gözəllə vüsal dəmi “Qalubəladan” əvvəlki ruhun ilahi mahiyyətlə vüsalına işarədir.[4]

Orta əsr şairləri divan şeirində işlədilən məcaz və simvollara tam dərindən bələd olmuş və onlardan yerli yerində istifadə etmişlər. Bu ədəbiyyatda işlədilən “şərab”, “mey”, “meyxanə”, “badə”, “zülf”, “kirpik”, “qaş”, “üz”, “xətt”, “ağız” və s. ifadələrin təsəvvüf şeirində özünəməxsus mənası olmuşdur. Bu ifadələr inkişaf edib təkmilləşdikcə söz funksiyasından çıxaraq söz birləşməsi, frazeoloji birləşmə şəklində sinonimik mənalar da kəsb etməyə başlamışdı. Deməli, sufi terminologiyasından istifadə edən şairlər şeirin həm məna gözəlliyinə, həm də ifadə dəqiqliyinə böyük önəm verirdilər.

Həsənoğlu qəzəlinin mahiyyətindən doğan sufi dünyagörüşü şerin ideyasını oxucuya çatdırır. Müəllifin aşiqə içirdiyi eşq şərabı bütün insanlıq olmazdan əvvəl yaranan bir eşqin tərənnümüdür.

Həsənoğlu sənə gərçi duaçıdır, vəli sadiq,
Nə sadiq? Sadiqi-bəndə. Nə bəndə? Bəndeyi-çakər.[5]

Həsənoğlunun bu qəzəli türkdilli poeziyada bir yenilik kimi özünü göstərdi. Özündən əvvəl fars və ərəb poeziyasında geniş yayılan sufi şeir

---

[1] Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. III c. XIII-XVI əsrlər Azərbaycan şeiri. Cildin tərtibçisi: Cahangir Qəhrəmanov. Bakı: Elm, 1984, s. 24

[2] Rüstəmova A. Klasik Azərbaycan poeziyasında qəzəl janrının tarıxı və poetikası. XIII-XVI əsrlər. Bakı: Elm , 1990 , s .42

[3] Alıcı S. Yunus Emrede İnsanlik . Türk yurdu. Sayı 319. İstanbul: 1966, s.239

[4] Xavəri S.A. Azərbaycan təsəvvüf ədəbiyyatı (XIII-XIV əsrlər):Nam. ...dissertasiya. Bakı: 1999, s.9

[5] Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. III c. XIII-XVI əsrlər Azərbaycan şeiri. Tərtibçi Cahangir Qəhrəmanovdur. Bakı: Elm, 1984, s. 25

ənənəsini Azərbaycan ədəbiyyatına gətirən bu qəzəl həm başlanğıc, həm də bir yenilik oldu. Həsənoğlu yaradıcılığı özündən sonra yaranan həm təsəvvüf poeziyasına, həm də türk dilində yaranan şeir məktəbi üçün bir cığır açdı. Özündən sonra gələn poeziyaya yol göstərən mayak rolunu oynadı.

Fəslin ikinci yarımfəsli **"Mahmud Şəbüstəri poeziyasında təsəvvüfün inkişaf dinamikası"** adlanır. Bu yarımfəsildə Azərbaycan fəlsəfi fikrinin inkişafında görkəmli rol olunan Mahmud Şəbüstəri (1287-1320) yaradıcılığı ilə farsdilli poeziyadan türkdilli poeziyaya keçid dinamikası araşdırılıb. O, Azərbaycan ədəbiyyatı tarixində XIII-XIV əsrlərdə inkişaf edən sufi poeziyasının görkəmli nümayəndəsi kimi təqdim olunur.[1]

Onun "Gülşəni-raz" əsəri istər məzmunu, istərsə də forması etibarilə ədəbiyyatla bağlıdır. Birinci halda o, ədəbiyyatda işlənən təsəvvüfi simvolların mənasını şərh etməsi baxımından, ikinci halda isə bilavasitə ədəbi formadan – nəzm üsulundan istifadə olunmaqla yazılması ilə əlamətdardır. Bu cəhətdən sənətkarın əsəri nəyə görə nəzmlə yazması haqqındakı fikirləri təsəvvüfi ideya ilə bədii obrazın münasibətlərini aydınlaşdırmaq baxımından çox maraqlıdır. Şəbüstəri sözü gedən bəhsdə yazır: "Hamı bilir ki, mən bütün ömrüm boyu şeir söyləməyə heç cəhd etməmişəm.Təbim ona qadir olsa da, ancaq nadir hallarda şeir demişəm".[2] Burada sənətkarın təsəvvüflə ədəbiyyatın əlaqəsinə baxışının bir çox mühüm məqamları əks olunmuşdur. Əsərdən məlum olur ki, Şəbüstəri heç də poetik ilhamdan məhrum deyil."Gülşəni-raz" bədii əsər də deyil, lakin bədii əsər olmaqdan kənar hadisə də deyil: öz məzmunu (təsəvvüfi-poetik simvolikası) və forması (nəzm üslubu) ilə bədii ədəbiyyata bağlıdır.

Şəbüstəri əsərdə ona ünvanlanmış on beş suala cavab vermişdir: Şəbüstəriyə görə, "Gülşəni-raz" həqiqətdən soraq verən bir əsərdir. Elə bir həqiqət ki, onu adi gözlə yox, "könül gözü" ilə görmək olar. Ç.Sasani Şəbüstəri yaradıcılığından danışarkən yazır:"Şəbüstərinin "Gülşəni-raz"da göstərdiyi "böyük aləm", və onun oxşarı insan vücudunda "yuxarı-aşağa" simvolu haman aləm və bədəndə "ağıl" (yuxarı), nəfs (aşağı) şəhərlərdir ki, "Gülşən" və "Mirat"da şərhlərini vermişdir".[3]

---

[1] Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. I c. Bakı: Azərbaycan Elmlər Akademiyasının Nəşriyyatı, 1960, s. 213

[2] Şeyx Mahmud Şəbüstəri. Gülşəni-raz. Fars dilindən filoloji tərcümə, ön sözün və izahların müəllifi Möhsün Nağısoylu. Bakı: Nurlan, 2005, s. 3-10

[3] Sasani Ç. Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsərində bədii-fəlsəfi rəmz, simvol, obraz, bənzətmə və istiarələrin mənşəyi və şərhi. (II məqalə) // Orta əsrlər Azərbaycan ədəbiyyatı. (AMEA-nın müxbiri R. Azadəyə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı: Elm, 2013, s.85-99 .

Sənətkar belə hesab edir ki, onun əsərdə bəhs etdiyi məsələlərdən heç kəs indiyə qədər onun səviyyəsində söhbət aça bilməmişdir. Yəni bu məsələlərə ona qədər toxunulmuşdursa da, nə təsəvvüfi-fəlsəfi məna, nə də bədii forma baxımından heç kəs bu məsələləri Şəbüstəri kimi işləyə bilməmişdir.

Əsərdə təsəvvüf fəlsəfəsinin elə bir problemi, elə bir məsələsi qalmamışdır ki, ona aydınlıq gətirilməsin. Bu əsəri "könül gözü" ilə oxuyan hər kəs burada öz suallarına cavab tapacaqdır.

Bu əsəri dərk etməyin yeganə yolu həqiqətə zahiri münasibətdən əl çəkib, onun batininə enməkdən keçir. Bunun üçün insanın adi düşüncə ilə bildiyi və gördüyü şəriət kifayət etmir, batini mənaları, pərdə altında qaranlıqda qalan mətləbləri görə bilən "könül gözü" baxması lazımdır. Əsərdəki məsələlərə "könül gözü" ilə baxdıqda şəriət bütün batini mənaları, daxili məzmunu ilə aydın görünür.

Bu fəslin üçüncü yarımfəsli **"Klassik ənənələr, təsəvvüfi çalarların Qazı Bürhanəddin və Marağalı Əvhədi poeziyasında əksi"** adlanır. Bu yarımfəslində anadilli ədəbiyyatın əsası Həsənoğlu qəzəli ilə müəyyənləşsə də, onun sonrakı yüksələn xətti üzrə inkişafını Qazi Bürhanəddin poeziyasında görürük.[1]

Qazı Bürhanəddin yaradıcılığını bir tərəfdən klassik poeziyadan bəhrələnirsə, digər tərəfdən xalq həyatından süslənirdi. Onun poeziyasında xalq yaradıcılığından gələn şəm (od), pərvanə qarşılaşdırmasının həm xalq təfəkküründə, həm də təsəvvüf şeirində kəsb etdiyi məna çalarlarına aydınlıq gətiriləcək.

Poeziyada sevən aşiqin "şəm"a təşbeh edilməsinə demək olar ki, orta əsr şairlərinin hamısının yaradıcılığında rast gəlirik. Onlar da bu müqayisə və paralelliyi müxtəlif şəkillərdə oxuculara çatdırırlar. Qazi Bürhanəddin poeziyasında "şəm" obrazının xüsusiyyətlərini-odun şöləsinin parıltısını, od alovunun dilimlər şəklində olmasını, rənginin qırmızılığını, qığılcımlar şəklində ətrafa səpələnməsini müxtəlif funksiyalar daşıyır. "Bən səməndər qıluram oda könül", "şam eyləyibən yüzümi yürəkdə qodum od", - deyən şair müxtəlif məcazi vasitələr yaratmışdır. Bəzən də şair gözəlin üzünü mənfi çalarda vermək üçün, onu Nəmrudun odu ilə müqayisə edir. "Ol oda buraxdı könlü hüsni nigarın ki, səhl ola qatıda anun atəşi Nəmrud" - deyir.

Qazı Bürhanəddin folklordan gələn bu ideyanı saxlamaqla sevən aşiqin də pərvanə kimi gündə bir neçə dəfə odda yandığını, öz sevgisi yolunda ölüb-dirildiyini göstərir.

Bu dioparalellərin həm üst qatında, həm də alt qatında etnik yaddaşdan

---

[1] Köprülü F. Azərbaycan ədəbiyyatına aid tədqiqlər. Bakı: Sabah,1996, s.16.

gələn xüsusiyyətlər təsəvvüfi qavramla qovuşaraq poetik düşüncənin atributuna çevrilir. Hər iki halda inivasiya olan bu obrazlar öz ilkin funksiyalarından çox da uzaqlaşmayaraq, təsəvvüf poeziyasının bir obrazına çevrilərək şairin yeniliyi kimi ortaya çıxır.

Xalq yaradıcılığından gələn "şam - pərvanə" motivi təsəvvüfi ədəbiyyatında başa məna daşıyır. Təsəvvüf şerində pərvanə həmişə odun, şamın ətrafında dolaşır, özünü oda, alova vuraraq məhv edir. Şair bəzən də məcaz yolu ilə alovu şərab qədəhi kimi düşünür. Sevən aşiq necə qədəhdən şərabı içib özündən keçirsə, pərvanə də məhəbbətindən özünü şamın alovunda məhv edir. Şair bəzən də şərab içən aşiqlə özünü alova atan pərvanəni Tanrı varlığında yox olan, əriyən bir ilahi eşqin simvolu kimi təsvir edir:

Pərvanə gərəkdir, şaha, şol səm yüzünçün,
Ki, yanmağa qoya bizi fərraş eşqində.[1]

"Şam və pərvanə" arasındakı bağlılıq əsrlər boyunca şairlərin diqqət mərkəzində olmuşdur. Şairlər bu iki varlığın əlaqəsindən müxtəlif bənzətmə və simvollar yaradaraq, onlar arasındakı bağlılığı həm həqiqi, həm də məcazi mənada işlətməklə bəşəri və ilahi eşqi dilə gətirmişlər.

Belə ki, ədəbiyyatda şəmi – asiman, şəmi – afitab, şəmi – çıraq kimi ifadələr "ay" anlayışını da içinə alaraq, "şəmi – fələk ", "şəmi – alemi afitab" və s. kimi adlarla işlənərək poetik funksiya daşıyır.

Şəm, şam ərəb dilindəki mum, çıraq, qəndil, alov mənalarını ifadə edir. Şəm bəzən bu ifadələrlə yanaşı "günəş" mənasında da işlənməkdədir. Məsələn şair deyir: "Günəş üzü üstündəki bədr ayına baxın. Günəş dəxi zərrin ola üzün kimi rövşən"[2] deyən şair sevgilisinin üzünün günəşdən parlaq olduğunu vurğulayır.

Təsəvvüf ədəbiyyatında nurun, işığın müxtəlif qaynaqları göstərilir. Bunlar hamısı da qəlbdə təcəlla edir və çıraq, şəm, məşəl şəklində dilə gətirilir. İşıq kimi göstərilən "şam" obrazının qaynağı çox qədimlərə gedib çıxır. Belə ki, hələ nağıllarımızda rast gəlinən, "qaranlıq dünya", "işıqlı dünya" anlayışı, Avesta kitabının əsas ideyası olan, qaranlıqla işığın mübarizəsi, yaxşılıqla pisliyin mübarizəsi, ulduzların günəş ətrafında fırlanması kimi ideyalar "şam" anlayışı ilə simvollaşır. Şəm və pərvanənin qaynağından danışarkən onu da deməliyik ki, bu ifadələr ilk dəfə Qurani-Kərimdə və hədislərdə belə bir ifadə şəklində yer alır. "O gün insanlar yayılan pərvanələr kimi olacaq" ayətində insanlar uçuşan pərvanələrə bənzədilmişdir.

---

[1] Köprülü F. Azərbaycan ədəbiyyatına aid tədqiqlər. Bakı: Sabah,1996 s.49.
[2] Yenə orada, s.338.

Şair məşuqənin şəninə şəmin dönüb pərvanə kimi yanmasını, yəni ikilik halından çıxıb bir olmasını poetik baxımından dilə gətirir. Təsəvvüf poeziyasında pərvanənin şam ətrafında dövrə vurub özünü atəşdə məhv etməsi müxtəlif mərhələdən keçərək gerçəkləşir. Belə ki, pərvanə işıqdan doymaz, bu meyil onun maddiyyata bağlılığını, ikinci halda o, öz qürurunu göstərir, nə qədər şamın işığı, alovu artsa da, bu onu qorxutmur. Ən nəhayət, atəşdən doymayan pərvanə çılğın bir halətlə özünü alovlar içinə ataraq, alovda məhv edib, yox olur. "Yar şəninə ta kim yana pərvanəsifət can, gərək yanasın bu gecə, pərvanəsən ey şəm", deyə şair özünün də eşq atəşindən pərvanə kimi yandığını deyir.

Pərvanəni şəmə sövq edən ən başlıca səbəblərdən biri şəmin işığıdır, bu zaman gerçəyin bilinməsi – ilmül-həqiqqət anı, sonra isə onu cəzbə sövq edən səbəblərdən biri də şəmin istiliyidlir; bu an da gerçəyin gerçəyidir, yəni həqiqətül-həqiqət anında olan salikin özündən keçməsidir:

Xalın danə eyləmiş, zülfini dam ta məgər,
Danəsinə təmə qılun, damına bən düşəm deyü.

Müəllif göstərir ki, gözəlin xalına tamah salıb məhəbbət oduna düşən aşiqlə Adəm peyğəmbər arasında heç bir fərq yoxdur. Buğdaya tamah salan quş ovçunun toruna düşdüyü kimi, Adəm də cənnətdən Allah-təala tərəfindən qadağan olunmuş meyvəyə tamah saldığı üçün cənnətdən Yer üzərinə qovulur.

Müxtəlif qütblərdən araşdırılmasını gözləyən bu şeir nümunələri orta əsrlər poeziyasında özünəməxsus yeri olan Qazı Bürhanəddin yaradıcılığının daha geniş imkanlara malik olmasından xəbər verir. Bütün bunlar eyni zamanda orta əsrlər Azərbaycan şeirində təsəvvüf görüşlərinin etnik-milli çalarlarını nümayiş etdirir.

Bu fəslin dördüncü yarımfəsli **"İmadəddin Nəsimi və müasirlərinin qəzəllərində təsəvvüf poetik özünüdərk aktı kimi"** adlanır. Bu yarımfəsildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin ədəbiyyat tariximizdə anadilli fəlsəfi şeirin əsasını qoymasından, təsəvvüf məzmunlu şeirləri və onun yaradıcılığının təsir dairəsindən bəhs edilir. Q. Paşayev yazır: "Nəsimi sufilik və hürufilik tərəfdarı idi. Lakin bu təriqətlərin geniş yayılması dövrün ictimai-siyasi hadisələri və şəraiti ilə bağlı idi. Humanist şair olan Nəsimini bu baxımdan təkcə təriqət şairi kimi qələmə vermək doğru olmazdı".[1]

Müxtəlif baxışlar sisteminə görə təsəvvüfdən bir o qədər də fərqlənməyən hürufilik hərflərə ilahi münasibətə görə Şərqin digər fəlsəfi təlimlərindən seçilir. "Hürufilərin qənaətinə görə, varlıq səslər vasitəsilə

[1] Paşayev Q. Nəsimi haqqında araşdırmalar. Bakı: Qarabağ, 2010, s.50.

təzahür edir. Səs qeyb aləmindən eyn aləminə gələrək maddi varlığı bürüyən hər şeydə vardır. Səsin ən kamil forması sözdür ki, bu da insan nitqində təzahür edir”.[1]

Onların sözə ilahi yaradılışın təzahürü kimi baxmaları ümumən ədəbiyyatı ilahi özünifadə vasitəsinə çevirmişdir Hürufilərin sözə bu baxışı onların təliminin əsas tezislərindən biri kimi ədəbiyyatın inkişafına təkan vermişdir. Bu cəhətdən İmadəddin Nəsiminin ümumən ədəbiyyat qarşısında xidmətləri əvəzolunmazdır. “Bu quş dilidir, onu Nəsimi bilir ancaq”.[2]

Nəsimi şeirinin poetik gücü öz qaynağını bir tərəfdən sənətkarın coşqun şairliyindən götürürsə, digər tərəfdən onun mənsub olduğu milli mədəniyyətdən alırdı. Bu mənada Nəsimi yaradıcılığında işlənən obrazlar təkcə ümumşərq xarakterli hürufi görüşləri ilə bağlı olmayab, eyni zamanda xalqın əsatiri (mifik) görüşləri ilə də bağlı idi. S.Şıxıyeva yazır ki, Nəsimi əsatiri görüşlərin həqiqi qoruyucusu olan xalq inamlarına müraciət edərkən bu sahədəki biliklərini nümayiş etdirmək niyyətini izləməmiş, həmin görüşlərin təsəvvüf və hürufilik baxımından yozula bilənlərini şeirə çevirmişdir.[3] Şairin “Düşdü yenə dəli könül gözlərinin xəyalinə”[4] mətləli qəzəlində, yəni bir şeirdə iki şeirin ifadə tərzini görürük . Şeirin birinci hissəsi insan gözəlliyinə həsr olunmuş məzmun və ifadə hissədən ibarətdir. Bu – qəzəlin üst qatdır. İkinci şeir aşiqin düşdüyü “hal”a həsr olunmuş məzmun və ifadə hissədən ibarətdir. Bu da şeirin – alt qatdır. Bu iki qatın birləşməsi Nəsimi şeirini, eləcə də onun şeirinin nümunəsində Azərbaycan poeziyasını dünyanın ali məqamına qaldırır. Misralarda işlənmiş “dəli könül” ifadəsi birbaşa folklordan gəlib, lirik qəhrəmanın bu obrazda ifadə olunan halını insan düşüncəsinin ən dərin qatları ilə bağlayır. İnsanın könlü dəli kimi cüşə gələndə o, Dəli Domrula, Dəli Qarcara, Koroğlu dəlilərinə çevrilir. Bu halda onun dağ çayı kimi coşub-daşan, sel kimi çağlayan hisslərinin qabağında heç kəs dura bilməz. Bu cəhətdən şeirdə işlənmiş “dəli könül” obrazı və bu obrazın ifadə etdiyi psixoloji hal Nəsiminin bir şair kimi bütün varlığı, bütün psixoloji mahiyyəti ilə mənsub olduğu xalqın düşüncəsindən doğduğunu göstərir. Yaxud şeirdəki “xəyalinə” və “xəyali nə” omoformları ilə qurulan poetik oyunu təcnisi də bir şair tərəfindən qurulmuş mexaniki şeir konstruk-

---

[1] Xavəri S. Azərbaycan təsəvvüf ədəbiyyatı (XIII-XIV əsrlər): Nam. dissertasiya. Bakı: 1999, s. 96.

[2]Nəsimi. Tərtib edəni: Həmid Araslı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, 666 s.

[3] Şıxıyeva S. Nəsiminin düşüncə aləmində mifopoetik obrazların yeri // Elmi araşdırmalar (elmi-nəzəri məqalələr məcmuəsi), № 3-4. Bakı: Nurlan, 2000, s. 20.

[4]Nəsimi. Tərtib edəni: Həmid Araslı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, 666 s.

siyası kimi qiymətləndirmək mümkün deyildir. Unutmaq olmaz ki, verilmiş misralar qəzəlin ilk beytidir. Bu, poetik doğuluş nidasıdır, bədahətən gələn manifestdir. Bütün şeir bü beytin üzərində qurulur. Bu beyt bədahətən, yəni düşünmədən, öz-özündən yaranmasa, bütöv qəzəl yaranmaz, yaxud yaransa da, süni bir şeir olar. Amma qəzələ nəzər salanda onun cismində hissləri qəfildən cuşə gələn, içindəki poetik ruhani həzdən vəcdə gələn Nəsiminin döyünən, canlı şəkildə atan qəlbini görməmək olmur.

Nəsimi şeirində təsəvvüfə münasibəti ifadə edən məqamlara diqqət verilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqamlar Nəsiminin sosial-psixoloji özünüdərk halını ifadə etməklə yanaşı, təsəvvüfün Azərbaycan ədəbiyyatını Nəsimi şeirinin simasında özünüdərk vasitəsinə çevirdiyini və ümumən ədəbiyyatın idraki funksiyasını ortaya qoyur. Onun təsəvvüf məzmun və mahiyyətini ehtiva edə "Ey qılan dəvi ki, sufiyəm, fütüvvatın nədir? Gər səfa əhlindən oldun, həqqə miratın nədir?"[1]mətləli qəzəlində öz bədii ifadəsini tapıb.

Öz yaradıcılığında hürufiliyin qəliz anlayış və terminlərindən istifadə edən, özü öz şeir dilini ondakı təsəvvüfi-irfani simvolikasına və bundan doğan çətinliyinə görə "quş dili" adlandırır. Nəsimi görkəmli hürufi ideoloqu olsa da, onun şair kimliyi heç vaxt hürufi kimliyinin içində əriməmiş, kölgədə qalmamış, Nəsimi sona qədər ədəbiyyat adamı – şair olaraq qalmış, ümumtürk ədəbiyyatının inkişafına şüurlu şəkildə xidmət etmişdir. Bunu Nəsimi yaradıcılığında işlənmiş şeir poetikasına dair anlayışlar da təsdiq edir. İ.Yakar yazır ki, XIV əsr olaraq klassik türk ədəbiyyatı üçün erkən sayla biləcək dönəmdə fars ədəbiyyatındakı klassik məzmunları türkcəyə səmimi bir inanc və lirik bir ifadə ilə tətbiq edərək, klassik şeiri zamanın fövqünə qaldıran Nəsimi "söz", "şeir", "ləfz" anlayışlarının özündə buraxdığı izləri şeirlərində ustaqlıqla təsvir etmiş, divan şeirinin potikasının müəyyənləşməsinə də zəmin hazırlamışdır. Nəsimi şeir üçün şeir, əşar, nəzm, söz, ləfz, məntiq, nitq, süxən, kəlam kəlmələrini istifadə etmiş, öz şeirlərini vəsf etmək üçün zülal, dür, ruhi-qüds, cövhər, can, abi-həyat, Kövsər, damla, vəhy, dəmi-İsa, mərifət, sərraf, əqiqət, gövhər, şirin, möcüzat kimi sifət və bənzətmələrlə öz "söz"ünü anlatmağa çalışmışdır".[2]

Azərbaycan ədəbiyyatında Nəsimidən sonra böyük bir ədəbiyyat yarandı ki, bunun da nümayəndələrinin bəziləri tarixin qaranlıq səhifələrində yaşamaqdadırlar. Belə şairlərdən biri də Qəribidur.

---

[1]İmadəddin Nəsimi // Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. V c. Cildin tərtibçisi: Həmid Araslı. Bakı: Elm, 1985, s. 50.

[2]Yakar İbrahim. Seyid Nesiminin Şiir Anlayışı / Evrene Sığmayan Ozan Nesimi (I Uluslararası Seyyit Nesimi Sempozyumu Bildirileri, 17-19 Haziran, 2005). Hazırlayan Gülağ Öz. Ankara: 2006, s. 338.

Qəribi XVI əsr Azərbaycan ədəbiyyatında hürufilik və qızılbaşlıq ideyalarının yayılmasında böyük rolu olan sənətkarlardan olmuşdur. Qəribi Anadolu bölgəsində böyüyüb boya-başa çatmışdır. Onun doğulub boya-başa çatdığı türk ərazilərində şiəlik, hürufilik, qızılbaşlıq hərəkatı çox geniş yayılmışdır. Bir müddət Anadolu bölgəsində yaşayan sənətkar səfəvilər hakimiyyətinin sorağı ilə Təbrizə gəlmiş, Təbrizdə Şah Təhmasibin sarayına yaxın olub şiəliyi, qızılbaşlığı və onun xanəgahını təbliğ etməyə başlamışdır. O, Səfəvilər dövlətinin ideoloji əsaslarının, dövlət qanunlarının türk dilində yazılmasında yaxından iştirak etmiş, Azərbaycan türkcəsində yazan əsərlərin meydana gəlməsində yaxından iştirak etmişdir. Şah İsmayıl Səfəvi dövlətini qurarkən ətrafına türk dilində yayıb-yaradan sənətkarları toplamağa başlamışdır. Səfəvilər sarayında bəzən onların türk dilində yazmalarını göstərmək üçün onlara "Qızılbaşca"da deyirdilər. O dövrdə geniş yayılmış qızılbaşlıq hərəkatı bütün hallarda XVI əsrdə yazıb-yaradan sənətkarları öz təsiri altına almaqda idi. Qəribi ədəbiyyatımızın qaranlıq səhifələrində yaşayan sənətkarlarımızdandır. Onun həzrəti Əliyə, İmam Hüseynə, I Şah Təhmasibə həsr edilmiş qəsidə və tərcibəndləri vardır. Qəribi təzkirəsində yeri Qurandan gətirilən ayə və hədislər, həzrəti peyğəmbərin vəsfi mühüm yer tutur. Bu haqda P.Əlioğlu yazır: "Qəribinin şeirlərinin dili Azərbaycan türkcəsindədir. Bu əsərlərdə ən çox Nəsimi və Xətainin təsirini görürük. Şair əsərlərində Nəsimidə rast gəldiyimiz hürufi rəmzlərindən istifadə edir, bəzən onun şeirlərinin ritmini də təkrar edir."[1]

Zülfünü əhli nəzər nuri-yəqindir dedilər,
Sünbülün tovrəsinin həbli-mətindir dedilər.

Nümunə gətirdiyimiz bu beytdə Nəsiminin təsiri açıq-aydın görünməkdədir.

Həyat və yaradıcılığı ədəbiyyatımızda az araşdırılan sənətkarlardan biri də Sürüridir.

Hürufi şeirinin inkişafında XV əsrin sonu XVI əsrin əvvəllərində yaşamış Azərbaycan şairi Sürurinin böyük rolu olmuşdur. O, Nəsimi ilə başlayan hürufi poeziyasını davam və inkişaf etdirmişdir. Süruri şeirlərini mövzu və ideya cəhətdən Nəsimi poeziyası ilə səsləşməsi onların eyni ideoloji cərəyana, əqidəyə sahibliyinin bariz nümunəsidir. Onun əsərlərinin tez bir zamanda səfəvilər sarayında yayılması onun poeziyasında olan şeriyyətdən xəbər verirdi. Sürurinin Nəsimi irsinin davamçılarından olması haqqında H.Araslı "Böyük Azərbaycan şairi Füzuli" monoqrafiyasında məlumat verib. H.Araslı onu da qeyd edir ki, Fəzlullahı Allah kimi görüb Xatai sarayında yaşayarkən belə hürufi fikirlərini yaymışdır. Süruri haqqında A.Musayeva Xəlilinin "Firqətnamə" əsərində

---

[1]Əlioğlu P. Qəribi // "Azərbaycan" jurnalı, 2014, №1, s. 176.

Sürurinin bir necə şeirindən nümunələr vermişdir. O göstərir ki, "Müənbər kakilin xurşidə salmışdır kəmənd" mətləli qəzəl Süruriyə aiddir.

Dün sürahi qülqülündən bir xitab oldu mana, [1]
Kim, səfadən mey şəfəq, cam afitab oldu mana.

Nümunə kimi verdiyimiz bu beytin dili sadə, aydındır, orada anlaşılmayan izafətlər və tərkiblər yoxdur. Şairin lirik qəhrəman nagəhan mey qabından – sürahidən bir səsin gəldiyini eşidir, bu müraciət sanki aşiqn daxilinə bir işıq, atəşin dolduğunu deyir və buna sevinir. Bilirik ki, təsəvvüf şeirində qülqüldən çıxan səs ilahi mənanı özündə əks etdirir, yəni o qaranlıq məqamında olan sirləri özündə daşımaqdadır. Aşiq "könlümdən ol qədər qıldım çəkidə xuni-dil" deməklə, bu sevgidən əzab çəkdiyini, ürəyinin qan ağladığını deyir. Sonrakı beytdə sevgidən məst olan aşiq, saqinin tökdüyü eşq şərabin torpağa axmasını görüb, həmin torpağı özünün məzarı olmasını istəyir. Zahidə müraciət edən şair sevgilisinin mey içməsinin xəta olduğunu deyir. Bununla da günaha batan aşiq şerin məqtə beytində dərdinə "dərdə həmdərd ol ki, vəsli-yardan, qismət etcək qəmzəvü nazü itab oldu mana" deyir.

İstər Nəsiminin, istər Qəribinin, istərsə də Sürurinin yaradıcılığı, bədii tutumu, onda daşınan mənalar baxımından ümumən çox nəhəngdir. Nəsimi, Qəribi və Sürüri şeirlərində qədim və orta əsrlər Azərbaycan milli düşüncə tarixi üçün xarakterik olan təsəvvüfi-irfani ideyaları davam və inkişaf etdirmişdir.

Tədqiqat işinin IV fəsli **"XV-XVI əsrlər Azərbaycan şeirində təsəvvüf"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir.

Bu fəslin birinci yarımfəsli **"Şah Qasım Ənvar və Həbibi poeziyasında humanizm ideyasının təbliğində təsəvvüfün rolu"** adlanır. Bu yarımfəsildə XV-XVI əsrlər Azərbaycan ədəbiyyatında anadilli poetik düşüncənin sürəkli inkişafı və bu prosesdə təsəvvüfi ideyanın davamlı iştirakından söz açılır.

Şah Qasım Ənvarın təsəvvüfi görüşləri onun şeirlərində və "Ənisül-arifin" poemasında ifadə olunmuşdur. Onun yaradıcılığında Allahdan başlanan və onun yaratdığı dünyaya və insana qədər gələn ilahi nizam təsəvvüfi ideya şəklində şeirin əsas özülünü təşkil edir. Bu zaman şeirin poetik varlığının bütün elementləri öz estetik düzümünü təsəvvüfi ideyadan alır. Başqa sözlə, özəli təşkil edən təsəvvüfi ideyada daşınan ilahi nizam poetik obraz məkanın elementlərinin də ilahi nizama uyğun düzülüşünü

---

[1] Kərimov P. Süruri divanının Vatikan nüsxəsi // Elmi araşdırmalar (elmi-nəzəri məqalələr məcmuəsi), X buraxılış, Bakı: Elm və təhsil, 2014, s. 86

təşkil edir. Bu da öz növbəsində Şah Qasım Ənvarın şeirlərində təsəvvüfi ideya ilə bədii obrazın ilahi-poetik harmoniyasını yaratmaqla varlıq aləmindəki bütün ünsürlərin, o cümlədən bədii ünsürlərin ilahi vəhdət içərisində olduğunu təsdiq edir. “Qəlb ilahi gizlinlərin xəzinəsi ruhani nurların məkanıdır. Ürəkdə olanlar ruhun vəziyyətinin göstəricisidir. O ki gecə-gündüz çalışır, dildarın (Haqqın) didarının vəslinə tələsir...”[1]

Beləliklə, Şah Qasim Ənvar bədii sözü – ədəbiyyatı təsəvvüfün ana ideyası olan vəhdəti-vücudün reallaşdığı bədii məkan kimi təsdiq etməklə Azərbaycan ədəbiyyatının əvvəldən ona məxsus olan ilahi dəyərlərini qoruyaraq gələcək nəsillərə ötürür. “Çəkir hər gün o nazlı fərzanə, Gözünə sürmə, zülfünə şanə” deyən şair sevgilisinin hüsnünə heyrandır. Sevgilinin gözünə çəkdiyi sürmə, zülfünə çəkdiyi şanə onun əqlini başdan alır. Aşiqi heyran edən bu gözəlliyin bütün cazibəsi Sirri-Həqqə bağlıdır. Hər kim bu gözəlin əlindən badə alıb içirsə, məstlik nərəsi çəkir.

Qasim Ənvar məhəbbəti varlıq aləminin əsası kimi təbliğ etmişdir. Burada təsəvvüfi-aşiqanə məhəbbətlə real-insani məhəbbət arasında bir sərhəd yoxdur. Məhəbbət bütün mənası ilə vahiddir və vahiddən baş alıb gəlməklə onunla vəhdəti təcəssüm etdirir: “Məcsid ilə meyxanə, ya Kəbə ilə bütxanə, Məqsud məhəbbətdir, baqi bütün əfsanə”[2].

Lirik qəhrəman dünyaya vəhdətin gözü ilə baxır. Məhz bu məqamda məscid də, meyxana da, Kəbə də, bütxana da Allahın yaratdığı vəhdət enerjisi – məhəbbət içərisində görünür. Lakin insanların çoxu bunu anlamır.Ona görə də aşiq canana üz tutub ondan üzünü göstərməsini xahiş edir ki, o, hər kəs üçün vahid olan həyat əqidəsini başa sala bilsin. Hər kəsdə olan surət əzəldən yaranıb. Allah öz gözəlliyinə, insan da Ona aşiqdir. Yer üzündə Allahı nişan verən nə varsa, onunla didarı inikas edir. Dünya öz şəkilləri ilə fərqli görünsə də, vəhdət içində olan aləmdə nə varsa, hamısı bir-biri ilə bağlıdır. Bu ideyalar Şah Qasim Ənvar şeirinin bədii məzmunun təşkil etməklə onun şeirlərini ilahi humanizmin poetik bəyanatına çevirir. Sənətkarın şeirləri onun varlığının mənası və inikasıdır.

XV əsrin görkəmli simalarından biri də Həbibi olmuşdur. Həbibi (1470-ci il doğumlu) artıq XV əsrdə Hamidinin yaradıcılığında özünü aydın hiss etdirən, XVI əsrin əvvəllərində Süruri və Şahi yaradıcılığında daha da

---

[1]Babayev Y. Şah Qasım Ənvar //“Azərbaycan” jurnalı, Bakı: Azərbaycan nəşriyyatı, 2012,№4, s. 200.

[2]Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. III c. XIII-XVI əsrlər Azərbaycan şeiri. Cildin tərtibçisi: Cahangir Qəhrəmanov. Bakı: Elm, 1984, s.236-237; 240-241

güclənən, Füzuli poeziyasında kamala çatan poetik üslubun ən görkəmli nümayəndələrindən biridir”.[1]

Həbibi dünyagörüşü etibarilə panteist olmuşdur, Allahla təbiəti vəhdət halında götürmüşdür. Məsələ burasındadır ki, “Səfəvi hökmdarlarının şiə məzhəbini təbliğ etməsi ilə əlaqədar olaraq dövrün poeziyasında bəzən dini motivlər, sufi-şiə, həmçinin hürufilik ideyaları da öz əksini tapırdı”.[2]

Lakin Səfəvilər sarayında “məlik üş-şüəra” rütbəsinə qədər qalxmış bir sənətkarın yaradıcılığında hürufi ideya və obrazların davamlı düzümü göstərir ki, o, şiə məzhəbinə əsaslanan təriqətlər üçün xarakterik olan ümumi ideyalarla bərabər, hürufilik ideyaları ilə çox yaxından bağlı olmuşdur. Bunu onun poeziyası birmənalı şəkildə təsdiq edir. Həbibinin panteist kimi sufi, yaxud hürufi olmasını əldə olan şeirlərə əsasən tam aydınlaşdırmaq bir qədər çətindir. Sufizm və hürufizm arasında bir sıra əsas məsələlərdə olan yaxınlıq da buna mane olur. “Xərabat” [3]rədifli qəsidəsində istiğfar etmək, yəni Allahdan bağışlanmaq istəyən Həbibi könül çirkini birbaşa Fəzlullah Nəiminin əliylə yuduğunu bəyan etmişdir:

Şairin yaradıcılığında təcəssüm olunmuş mürəkkəb irfani ideyalar, hürufi obrazların olmasına baxmayaraq, ilk növbədə onun şeirləri dilinin sadəliyi ilə diqqəti cəlb edir. Göründüyü kimi, XV-XVI əsr şairləri, o cümlədən Həbibi Həsənoğlundan başlanan anadilli (təsəvvüfi) poeziyanı dil baxımından büllurlaşdırmış, onu poetik ədəbi normalarını sabitləşdirmişlər. Bu cəhətdən biz şeirdə ümumi təsəvvüfi ideyanın Azərbaycan ədəbi dilində çox ahəngdar səsləndiyini müşahidə edirik. Şair “Ola” rədifli qəzəlində hürufi görüşlərini birbaşa bəyan etmişdir: “Hər kim həmrah Fəzlullah ola, Ana fəzli-feyz ol Allah ola”. Qəzəldə başlanğıc beytində təcəssüm olunmuş təsəvvüfi ideya birbaşa Fəzlullah Nəimiyə ehtiva olunmuş vəhdəti-vücud ideyasını bəyan edir: hər kim öz ömür yolunda Fəzlullah Nəimi ilə yoldaş olsa, ona Fəzlin feyzi allahlıq edər. Bu yolda yol əri (təriqət yolu ilə gedən salik) Allahla müsahib olar. Kim ki məşuqənin eşqinə qul olar, o, əbədi dünyanın şahı olar. Aşiqin bu yolda işi məşuqəsi yolunda hər cövrə dözüb, yar yolunda göz yaşları axıtmaq, hicran əzabında qovrulmaqdır. Bu üfüqdə doğan hər ulduz (bu yolu getməyi bacaran hər aşiq) can göyünün ayı olar. Bu səadətin nücumu Şəmsullah olsa, kanat nur ilə işıqlanar. Doğru yol

[1]Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Ali məktəb üçün dərslik. Bakı: Ozan, 2008, s. 393

[2]Qəhrəmanov C. Allahyarov K. Müqəddimə. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. XIII-XVI əsrlər Azərbaycan şeiri. Üçüncü cild. Bakı: Elm, 1984, s.21

[3]Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. III c. XIII-XVI əsrlər Azərbaycan şeiri. Cildin tərtibçi Cahangir Qəhrəmanovdur. Bakı: Elm, 1984, s.360-361; 370

insanın vəchidir, bu yolu getməyən, əslində, yolsuz qalar. Kim insana səcdə etməsə, lənətlənmiş div, Allaha asilik edən azğındır. Elə ki Həbibi Allaha qul oldu, iki aləmdə sultan öldü. Beləliklə, bu qəzəl bütünlükdə hürufi ideyanın təcəssümünə xidmət edir. Burada Fəzlullahın Allahın məzhəri sayılması, insana səcdə etməyənin lənətlənməsi birbaşa hürufilik ideyaları ilə bağlıdır. Fəzlullah Nəimi bu mənada Həbibi yaradıcılığında hətta qibleyi-mehrab, şiə ideologiyasına görə, o dünyada şəfaət verəcək, günahları bağışlatdıracaq müqəddəs varlıq kimi tərənnüm olunur:

Təsəvvüfi eşqin, irfani-mistik sevginin humanizmlə bağlılığı F.Salimə görə, insanlığın halıdır: "İnsan özü də bilmədən mənəviyyatın, fəlsəfənin möhtacı olur. Həmin ehtiyac duyulan mənəviyyatın, fəlsəfənin başında isə dini-mistik, ruhani dünyagörüşü gəlir…"[1]

Bu fəslin ikinci yarımfəsli **"Şah İsmayıl Xətai lirikasında təsəvvüf özünüdərkin qızılbaşlıq modeli kimi"** adlanır. Bu yarımfəsildə Şah İsmayıl Xətainin dövlət adamı olmaqla bərabər, onun ana dilində yaranan poeziyanı milli dövlət quruculuğunun əsas ideoloji prioritetlərindən birinə çevirməklə, təsəvvüfün birbaşa milli ideya ilə qovuşmasından bəhs olunur. Qızılbaşlıq Xətainin öz fərdi düşüncə axtarışlarının nəticəsi kimi onun poeziyasına hopmamışdır.

Xətainin məşhur "İdim"[2] rədifli qəzəlində onun panteist görüşlərinin bütün irfani əsasları şərh olunmuşdu:

Şeir gerçəkliyə "Mən-Yaradıcı" münasibətlərindən baxışı ifadə etməklə əsaslandığı dünyagörüşünün fəlsəfəsini şərh edir. Mətndə öz əksini tapmış təsəvvüfi məzmuna görə, "mən" hələ yer və göy yox ikən, yəni maddi yaradılışdan qabaq var imiş. Maddi yaradılışdan qabaq var olan yalnız Allahdır. Bu halda "mən" ilahi yaradılışın başlanğıcı olan gövhərdən də qabaq mövcud olan ilahi substansiya kimi tərənnüm olunur. "Mən" həmin laməkan və lazaman gövhəri suya çevirir, su bütün dünyanı tutur. Beləliklə, "mən" maddi aləmi – insanları və cinləri, göy qatlarının yaradılışında iştirak edir.

"Mən" təkcə maddi aləmin əsasını yox, eyni zamada insani yaradılışın da əsasını təşkil edir, adam cildinə girib "ənəlhəq" deyir, lakin insanlar onu başa düşməyib, dərisini soyurlar. On səkkiz min aləmə transformasiya olunan "mən" yenə də onların yaradılışının fövqündə durur. "Mən" – Allahın, Allah – "mən"in sirrini bilir. Xətai haqqı – Allahı məhz Allah kimi tanıyan varlıq olaraq "mən"in daşıyıcısıdır.

---

[1]Salim F. Milli yaddaş sistemində ürfan və təsəvvüf. Bakı: Elm və təhsil, 2010, s.293

[2] Şah İsmail Səfəvi (Xətai). Qəzəllər, qəsidələr, Nəsihətnamə, Dəhnamə, qoşmalar. Mətnin elmi-tənqidi tərtibatçısı: Mirzə Rəsul İsmailzadə. Bakı: Əlhuda, 2004, s.164

Qızılbaşlıq ideologiyasını həm qılıncı, həm də qələmi ilə təbliğ edən Xətai siyasi və ədəbi şəxsiyyət idi. "O, böyük sufi və şiə şairidir. Şeirlərində xəyal ilə bağlı gözəl şəkillər, əruz musiqi, əhli-beyt məhəbbəti, təbii gözəlliklər, eşq, həqiqət, etiqadla bağlı məsələlər və insani səciyyələr parlaq şəkildə görünür" [1].

Sənətkarın folklora, ağız ədəbiyyatına, milli ədəbiyyatın qaynaqlarını özündə daşıyan poetik obraz və deyimlərə həssas münasibəti də bundan qaynaqlanır.

Xətainin "Arif ol" [2] rədifli qoşması onun bir sənətkar kimi humanist-fəlsəfi düşüncələrini inikas edir. Şeir Xətainin insan və insanlıq görüşlərini əks etdirir. Mütəfəkkir şairə görə, insanın dərki insanlıqdan keçir.

XVI əsrdə şiəliyi və qızılbaşlığı təbliğ edən şairlərdən biri də Mürtuzaqulu xan Şamlu Zəfər olmuşdur. "Şeirlərindən Murtuzaqulu xanın şiəliyə, qızılbaşlığa, Şeyx Səfiəddin dərgahına sadıq bir şəxs olduğunu görürük".[3]

"Ey Zəfər, istər isən dövləti-baqı tapmaq, Şeyx Səfi dərgahindən dərgah tutma atiz" nümunəsində daha aydın görünür.

Zəfərinin şeirlərində Şah İsmayıl Xətainin də təsiri böyük rol oynayıb. Onun aşağıdakı misraları Şah İsmayılın "Dəhnamə" poemasının əvvəlini xatırladır. "Bildınmı, könül, yar gəldi, Qış getdivü laləzar gəldi. Bülbül oxur idi bu səbəqdə Kim, fəsli-gülü bahar gəldi" deyimində bunun daha bariz nümunələrini görürük.

Göründüyü kimi, qızılbaşlıq ideyalarını təbliğ edən Xətai, Süruri, Qəribi, Zəfəri və başqa şairlərin milli dəyərlərə bağlılığı onların təsəvvüfi-irfani dəyərlərə bağlılığı ilə qovuşmuşdur. Bunları bir-birindən ayırmaq mümkün deyildir.

Bu fəslin üçüncü yarımfəsli **"Məhəmməd Füzuli yaradıcılığında və müasirlərinin əsərlərində təsəvvüf"** adlanır. Bu fəsildə Füzuli yaradıcılığından danışarkən onu deməliyik ki, əsərləri ilahi eşqlə süslənmiş şair qəzəllərində Allahın feyzinə çatmağın, ona yetişməyin yollarını arayırdı. Bu mənadandır ki, təsəvvüfün mənalı, simvolik deyilən işarəli dili şairə həqiqətləri üstüörtülü deməyə imkan vermişdir. Bir tərəfdən Füzuli yaradıcılığı sirli və müəmmalı görünürsə, digər tərəfdən bu şeirlər bizi şairin iç

---

[1]Buzeri H., Rezai D. Şah İsmail ve Onun Şiirlerine Bir Bakış / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 68-77

[2]Şah İsmail Səfəvi (Xətai). Qəzəllər, qəsidələr, Nəsihətnamə, Dəhnamə, qoşmalar. Mətnin elmi-tənqidi tərtibatçısı Mirzə Rəsul İsmailzadə. Bakı: Əlhuda, 2004, 534 s.

[3] Əlioğlu P. Mürtəzaqulu xan Şamlu Zəfər // "Azərbaycan" jurnalı, 2014, № 4, s.186-190

dünyası ilə tanış edir. "Bu ədəbiyyatda tərif edilən sərvi boylu, qıl (nazik – H.X.) belli, ox kirpikli, yay qaşlı, ilan (qıvrım – H.X.) saçlı və s. sahib gözəlin gerçəkdə bulunmadığı söylənərək xəyal edilmişdi. Divan şeirindəki bu bənzətmələr zaman-zaman bir açar olub duyğu və xəyal gücünü artırmaq üçün kullanılmışdır".[1] Bu haqda S.Əliyev yazır: "Füzuli faktın, sözün, səsin hikmətinə varmış, sehrinə tutulmuş, təsirinə dalmışdır".[2]

Qəzəllərində ən çox işlənən mövzu qadın və eşqdir. Hər bir şair də eşq iztirablarını müxtəlif yollarla anlatmaq üçün bənzətmə və terminologiyadan istifadə edir. Başqa bir tərəfdən təsəvvüf şeirində isə bunların yeri və terminologiyası fərqli izahlara gətirib çıxarır. Bu cəhətdən şairin təsəvvüfi anlamda olan bir şerini təhlilə çəkmək yerinə düşərdi.

Ey mələk-sima ki, səndən özgə heyrandır, sana,
Haq bilir, insan deməz hər kim ki insandır, sana[3]…

Sözü gedən qəzəldə şair Tanrı-mələk-insan üçlüyünü yaratmış, göylərdə olan simanın insanda təcəllasını əks etdirmişdir. Beytin təsəvvüf mənasında isə sevgili – Tanrıdır. İnsan canı Tanrıya verir, yəni ruh (son) ilahi mənşəli olduğu üçün insan ölərkən can ayrılıb gəldiyi məkana qayıdır. Bədən və can insanın həm maddi, həm də mənəvi varlığıdır. Varlığını verib (burada can – bədən anlayışındadır), bədənini öldürüb maddi varlıqdan ayrılan əslinə dönər, fənaya çatar, özünü Tanrı varlığında yox edərək əbədi həyata qovuşar.

Qəzəlin sonrakı beytinin şəkli baxımından açılışı "Bütün aləm gözəlliyinin – şəminin dövrəsində pərvanə kimi yandı, sən aləmin dövrəsində pərvanə kimi yandı, sən aləmin canısan. Hər an minlərlə aşiq sənin canına qurban edir" şəklindədir.

Beytin təsəvvüfi semantik mənası isə belədir. Burada "camal" – "camali-mütləq"dir. Sufilərə görə bu aləmin yaranmasının səbəbi eşqdir. Dünya eyni zamanda vücudi-mütləq olan Tanrının eşqi zatı ilə özünü görmək, göstərmək və bildirmək istəməsindən yaratmışdır. Təsəvvüfdə belə bir fikir formalaşıb ki, Tanrı bu aləmi və insanları öz varlığını bildirmək üçün yaratdı. Tək varlıq odur. Aləmdəki hər bir şey vücudi-mütləqin təcəllasıdır. Bu məna beytdə hər kəs, hər şey bütün insanlar, dünya, kainat anlamında "aləm" kəlməsi, "sami-aləm" ifadəsi ətrafında toplaşıb. Bu haqda Z.Bayramlı yazır: "Buna görə də sufi-mistik axın və görüşlərin təsirini nəzərə almadan şairin sevgi fəlsəfəsini,

---

[1].Masıoğlu H. Divan Şiirinde Qezel. Türk Edebiyatı // Eski Türk Ansiklopedisi, c. XXXII, Ankara, 1982, s.134

[2]Əliyev S. Füzuli. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1996, s. 62.

[3] Məhəmməd Füzuli. Seçilmiş əsərləri (Tərtib, müqəddimə, şərh və lüğət Əkrəm Cəfərindir) Bakı: Yazıçı, 1984, 272 s.

eləcə də poeziyasını bütün genişliyilə başa düşmək, ideya-estetik səviyyəsini dərk etmək mümkün deyildir."[1]

Qəzəlin son beyti:

Ey Füzuli, xubrulardan təğafüldür yaman,
Gər cəfa həm gəlsə onlardan, bir ehsandır, sana!

Yəni ey Füzuli, sənə gözəllərdən gələn pislik də bir yaxşılıq kimidir: sevgilidən gələn üzüntü, kədər, pislik, hamısı ehsandır, savabdır. Aşiqləri öldürən də budur. Dini və təsəvvüfi fəlsəfəyə görə, ehsan etmək, lütfkarlıq, böyüklük, bağışlamaq Tanrıya məxsus sifətlərdir. Buna görə də hər kəsin etdiyi yaxşılıq ehsan sayılmaz. Ancaq Tanrıya məxsusluqlar ehsan sayılar.

Füzuli eşqinin sirlərini bəyan edən qəzəllərində onun təsəvvüfi-irfani, dini-fəlsəfi düşüncələri son dərəcə gözəl estetik cizgi və semantik mənalara malik obrazlarda təcəssüm olunmuşdur.

Təsəvvüf ədəbiyyatının formalaşmasında Məhəmməd Füzulinin həm müasiri, həm də davamçısı olan Yusif bəy Ustaclunun böyük xidməti olmuşdur. Bu günə kimi həyat və yaradıcılığı az öyrənilmiş sənətkarlardan biridir. O, Şah İsmayıl və Şah Təhmasibin dövründə yaşayıb-yaratmışdır. Sam Mirzə ilə dost olmuş, hakimiyyətə yaxın, dövlət işlərində nüfuzu və xalq arasında hörməti olan bir şəxsiyyət olmuşdur. Yusif bəy Ustaclunun divanından bəlli olur ki, o, Füzuli yaradıcılığına dərindən bələd olmuş onun qəzəllərinə nəzirə və təxmislər yazmışdır. Onun da kədəri Füzuliyanədir. Yusif bəyin şeirlərində aşıqın "eşq dərdi, kədər ilə tək qalmaq, vüsal həsrətində olmaq ümidini itirmiş aşiqə xoşdur. Cünki o, əsl aşiqdir, əsl aşiq üçün isə hicran qəmindən zövq almaq ən yüksək nemətdir. Tənhalıq içində şairin ən əsas təsəllisi təbi-süxəndanıdır."

Yusif Bəy Ustaclunun divanına nəzər saldıqda görürük ki, şairin lirik şeirlərindən başqa orada dövrünün, zamanının özəlliklərini əks etdirən ictimai-məzmunlu şeirlər də var. Bu şeirlər imkan verir ki, tarixin qaranlıq səhifələrindən dövrün həqiqətləri işıq üzü görsün. Şairin lirik şeirləri orta əsr poeziyasının xüsusiyyətlərini özündə daşımaqdadır. Burada poetik fiqurlar, təsəvvüf terminləri, obraz və sintaktik fiqurlar şairin ifadə imkanlarının genişlənməsinə xidmət edir.

Yusif bəy Ustaclunun lirik qəhrəmanı - məşuqəsi cəfa çəkdirəndir, rəhimsizdir. Aşiq qəm, qüssə çəkməkdən yorulub, belə möhnəti, əzabı düşməninin də çəkməsini istəmir. O, bu sitəmdən bəzən uzanmır "könlüm usanmaz gör ol yarı-sitəmkardin" deyir. Şairin başqa bir qəzəlində onun

---

[1] Z. Bayramlı. Füzuli və çağdaş ədəbi-nəzəfi fikri. Bakı: Elm, 2012, s.114

lirik “mən”inin istəkləri poetik obrazın dilindən verilir.

Könlümü bir qəmzeyi-tiğidin yenə çak istərəm,
Canımı bir badeyi-ləbdin tərəbnak istərəm.[1]

Şair bu qəzəlində aşiqin könlünü ovlayan məşuqəsini yenə qəmzəli baxışlarla ona baxmasını istəyir. Aşiqin ürəyi onun sevgilisinin eşq meydanında sərgərdən dolaşmadadır. Artıq bu dərdə dözə bilməyən aşiq “müştədil qalmağə bu əxgərmi xaşak istərəm” deyir. Özünün eşq yolunda gözlərinin Yəqub kimi kor olmasını, eşqinin Vamiqin eşqi kimi dillərə düşməsini, ahının Fərhad kimi dağları əritməsini, qəbrinin də Məcnunun torpağı olmasını istəyir.

Yusif Bəy Ustaclunun qəzəllərində Füzulunun təsir gücü olduqca qüvvətlidir. Azərbaycan ədəbiyyatında XII-XVI əsrləri əhatə edən zəngin yaradıcılıq epoxasında təsəvvüfi-irfani görüşlərin inkişafı sonda nəticə etibarilə ədəbiyyatın təsəvvüfi öz bətninə hopdurması, öz strukturunun üzvi elementinə çevirməsi ilə nəticələnir.

XII-XVI əsrləri əhatə edən zəngin yaradıcılıq epoxasında təsəvvüfi-irfani görüşlərin inkişafı sonda ədəbiyyatın təsəvvüfü özündə əritməsi, onu özünün əsas elementinə çevirməsi idi.. Başlanğıcda poeziya təsəvvüf üçün daha çox nəzm-ifadə vasitəsi rolunu oynayırsa, sonrakı əsrlərdə bu proses də davam etməklə təsəvvüfi ideyanın bədii ideyaya çevrilməsi oldu. Bu prosesdə Azərbaycan ədəbiyyatı bütün bədii heyəti və bədii potensiyası ilə iştirak edir. Lakin onun tarixində Nizami, Nəsimi, Xətai, Füzuli kimi poetik dühalar zaman- zaman irəli çıxıb “təsəvvüf və ədəbiyyat” münasibətlərinin gedişatına yeni yön, yeni ton verirlər. Bu tarixi-ədəbi prosesi, əslində, Füzuli tamamlayır. O, təsəvvüfün Azərbaycan ədəbiyyatındakı bütün mümkün poetik transformasiyalarını bir araya gətirərək ilahi eşqin ədəbiyyatdakı statusunu özünün “eşq” konsepsiyasının nümunəsində birdəfəlik tamamlayır. Ondan sonra Azərbaycan ədəbiyyatında “təsəvvüf və ədəbiyyat” müstəvisində iri simalar meydana çıxırsa da, Füzulinin müəyyənləşdirdiyi eşq təmayülü aparıcı istiqamət olaraq qalmaqda davam edir.

**Nəticədə** tədqiqatda gəldiymiz elmi qənaətlər aşağıdakı kimi ümumiləşdirilmiş, mütəsəvvüf filosofların təsəvvüf haqqında fikirləri, təriqətlərin təsəvvüf poeziyasının inkişafında rolu, Süleyman Həkim Ata, Əhməd Yəsəvi, Seyx Səfiəddin kimi şairlərin yaradıcılığında təsəvvüf baxışları tədqiq və təhlil olunmuş, təsəvvüfün inkişaf istiqaməti iki əsas mərhələdə XII-XIV və XV-XVI əsrlər üzrə ayrıca təhlil olunmuşdur. Aparılmış çoxillik tədqiqat işinin məntiqi sonluğu aşağıdakı kimi xülasə edilmişdir:

[1] Ustaclu Y. Divan. Tərtibçi və ön sözün müəllifi P. Kərimov. Bakı: Elm və təhsil, 2012, 150 s .

1. Təsəvvüf düşüncəsi ayrılıqda yox, ona görə islam dini düşüncəsi sistemində reallaşır, həmin dövrlərin fəlsəfi fikir axarları, xalqın dünyagörüşü, dini-düşüncə tərzi bütöv bir sistem halında araşdırılıb;

2. Təsəvvüf termini və onunla eyni kökdən olan mütəsəvvif (sufi, sufilik edən) və sufi sözləri haqqında araşdırmalar aparılmış, sözün etimoloji baxımdan izahına aydınlıq gətirilmişdir;

3. Təsəvvüfə sufi filosoflarının öz baxışları, sufi filosoflarının özünüdəyərləndirmələri də vahid bir sistem kimi götürülərək təhlilə cəlb olunub;

4. Təsəvvüf şairlərinin formalaşmasında təriqətlərin rolu, təriqətlərin təşkilatlanması, bu təriqətlərə mənsub olan şairlərin yaradıcılığındakı mütərəqqi xüsusiyyətlər araşdırılmış;

5. Azərbaycan ədəbiyyatının sufizmə bağlılığının iki mühüm amili araşdırılıb; birincisi, islamın Azərbaycanda yayılması: ilkin islam öz başlanğıcında zahidlik hərəkatının simasında sufizmlə bağlı olmuşdur; ikincisi, Azərbaycanda xüsusilə, yəsəviliyin simasında xalq sufizminin yayılması: "Kitabi-Dədə Qorqud" dakı təsəvvüfi görüşlərinin təsiri;

6. Nizami Gəncəvinin təsəvvüflə bağlı görüşlərinin tədqiqində onun poemalarının hər biri üzərində ayrıca dayanılır, şairi təsəvvüfə yaxınlaşdıran məqamlar təhlil olunur. Nizami Gəncəvi təsəvvüfünün türk dünyasına təsirində Yunus Əmrənin "Risalətün-nüshiyyə" məsnəvisi ilə "Sirlər xəzinəsi" poeması müqayisə olunaraq araşdırılıb;

7. Anadilli Azərbaycan poeziyasında təsəvvüfi ideyaların yayılmasında Əhməd Yəsəvi, Həkim Süleyman Ata, Şeyx Səfiəddin, İzzəddin Həsənoğlunun təsəvvüfi məzmunlu qəzəlləri ilk dəfə olaraq ətraflı təhlilə cəlb olunub. Şeyx Səfi təzkirəsinin tərcümə əsəri olduğu göstərilir. Qazı Bürhanəddin yaradıcılığının etnik-milli çalarlarının poeziyada bədii əksi faktik materiallar əsasında təhlildən keçirilib;

8. Sözə yaradılışın təzahürü kimi baxan hürufilərin bədii sözün ifadə vasitəsi olmasını, bu baxımdan Nəsimi şeirinin əvəzsizliyi şairin əsərlərindən gətirilən nümunələrlə bir daha təsdiqlənmişdir. Nəsiminin poeziyanı, hürufilik problemini bədii sözlə təbliğ olunan təlim səviyyəsindən çıxarıb, milli-poetik özünüdərkin hürufi modeli müstəvisinə gətirməsi nəticəsi çıxarılır;

9. Xətainin qızılbaşlıq görüşlərini davam etdirən Qəribinin, Zəfəri, Yusif bəy Ustaclu, Süruri və onların yaradıcılığı haqqında ədəbiyyat tariximizdə öyrənilməsi baxımdan əhəmiyyətli məlumatlar əldə edilmişdir.

XII-XVI əsrləri əhatə edən təsəvvüfi-irfani görüşlərin inkişafı sonda nəticə etibarilə ədəbiyyatın təsəvvüfü öz bətninə hopdurması, öz strukturunun üzvi elementinə çevirməsi ilə nəticələnir. Başlanğıcda poeziya

təsəvvüf üçün daha çox ifadə vasitəsi rolunu oynayırdısa, sonrakı əsrlərdə bu proses davam edərək təsəvvüfün bədii ideyaya çevrilməsi prosesini daha da gücləndirdi.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı monoqrafiya, kitab və məqalələrində əks olunmuşdur:**

***Monoqrafiya və kitablar:***


1. Yunus Əmrə. Monoqrafiya. Bakı: Ruemi, 2006, 190 s.
2. Yunus Əmrə (Məqalələr toplusu). Bakı: Elm və təhsil. 2012, 234 s.
3. Yunus Əmrə. Risalətün-nüshiyyə. Ön sözün müəllifi və müasir dilimizə uyğunlaşdıran: Xuraman Hümmətova. Bakı: Elm və təhsil, 2013, 195 s.
4. Yunus Əmrə Azərbaycan ədəbiyyatşünaslığında. Bakı: Elm və təhsil, 2014, 583 s.
5. Azərbaycan şeirinin poetik qaynağında təsəvvüf. Monoqrafiya. Bakı: Elm və təhsil, 2015, 408 s.


**Məqalələr:**


1. Mövlana və Yunus Əmrə // AMEA Folklor İnstitutu Elmi Araşdırmalar. 2006, c. XXIII,s.62-67.
2. Türk sufi şeirinin ilk nümayəndəsi Əhməd Yəsəvi və onun təsəvvüf məzmunlu şeirləri // AMEA-nın Xəbərləri. Humanitar Elmlər seriyası, 2009, №3-4, s.59-69
3. “Abdal” sözünün etimoloji anlamı və təsəvvüf şeirində yeri // Dil və Ədəbiyyat, BDU-nun Beynəlxalq Elmi-nəzəri jurnalı, 2010, №1 (72), s.95-97.
4. Nicatinin qəsidələri // Dil və Ədəbiyyat, Azərbaycan Dillər Universitetinin elmi-nəzəri jurnalı. 2011, №1, s.186-192.
5. Əhməd Yəsəvi hikmətlərində qəriblik//Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, 2011, №3, s.246-252.
6. Təsəvvüf poeziyası və metoforik-terminoloji sabitlik //Slavyan Universitetinin Elmi əsərləri. Dil və ədəbiyyat seriyası, 2011, №1, s.101-106.
7. Təsəvvüf və orta əsrlər türk ədəbiyyatı (Anadolu sahəsi) //AMEA Əlyazmalar İnstitutunun Filologiya məsələləri. 2012, №3. s. 529-538.
8. Qədim və erkən orta əsrlər Azərbaycan ədəbiyyatı və təsəvvüf // Filologiya məsələləri. 2012, №4. s.420-428.

9. Nizami Gəncəvi yaradıcılığında təsəvvüf probleminin nəzəri konteksti // Filologiya məsələləri. 2012, №5, s.474-483.
10. Təsəvvüf və ümumtürk ədəbi düşüncəsi // Dil və Ədəbiyyat BDU-nun Beynəlxalq elmi- nəzəri jurnalı, 2012, №1(81), s.300-303.
11. Ритуал «Сема» как основнаямодель суфийского тариката мевлеви // Проблемы Востоковедения. Научный журнал Академия наук Республики Башкортостан. УФА: Издательство «Гилем», 2012, №1 (55), с.30-34.
12. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasında təsəvvüf // Dil və Ədəbiyyat. BDU-nun Beynlxalq elmi-nəzəri jurnalı, 2012, №2 (82), s.146-150
13. Qazi Bürhanəddin: təsəvvüfi ideyanın ifadəsində-milli çalarlar// AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi araşdırmaları (elmi-nəzəri məqalələr toplusu), 2012, IX buraxılış, s.76-81.
14. Marağalı Əvhədi yaradıcılığı klassik təsəvvüfi ənənələrin davamı və inkişaf harmoniyasında // Dil və ədəbiyyat. BDU-nun Beynəlxalq elmi-nəzəri jurnalı. 2013, №1(85), s. 228-231.
15. Şah İsmayıl Xətai: siyasi-poetik özünüdərkin qızılbaşlıq modeli // Filologiya məsələləri. 2013, №3, s.410-418.
16. Sufi inanclarının xalq təfəkküründə yeri // Filologiya məsələləri.2013, № 4, s.243-249.
17. Концепция божественной любви в поэма «Лейли и Меджнун» Низами Генджеви // Проблемы Востоковедения. Научный журнал Академия Наук Республики Башкортостан. УФА: Издательство "Гилем."2013, № 4 (62), s.37-41.
18. Nizami Gəncəvinin "Yeddi gözəl" poemasında kamilləşmə modelinin şərhi // Avrasiya Uluslararası Araşdırmalar dergisi. Türkiyə: Ocak. 2013, №1, s.1-7.
19. Dini rəvayətlərin orta əsr poeziyasında kəsb etdiyi irfani anlamlar // AMEA Nizami adına Ədəbiyyat İnstitutu. Ədəbi əlaqələr. Toplu, 2014, №VIII, s.180-187
20. Həbibi şeirinin başlıca ideyaları və tarixi gerçəyliyin əksi // Dil və ədəbiyyat. BDU-nun Beynəlxalq elmi-nəzəri jurnalı. 2014, №1(89) s.181-184.
21. Nizami Gəncəvinin "Eşqdir mehrabı uca göylərin" ifadəsi irfan düşüncəsinin qaynağıdır // Filologiya məsələləri, 2014, №2, s.383-389.
22. Orta əsr şeirində irfani ideya ilə bədii obrazın ilahi-estetik vəhdəti // Dil və Ədəbiyyat. Azərbaycan Dillər Universitetinin elmi-nəzəri jurnalı, 2014, №1, s.181-186.
23. Confrontation of "Candle and Moth" in the Ethnopsychological Memory of Gazelles of Nijati // Qazaxıstan Respublikası Süleyman

Dəmrəl adına Universitet. Elmi jurnal dərgisi. 2014, № 1(29), s. 29-36.
24. "Cahan keyfiyyətin təhqiq edən" arif Füzuli / Aida İmanquluyevanın anadan olmasının 75 illiyinə həsr olunmuş Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı, 2014, 10-11 oktyabr, s.291-293.
25. Xaqani şeirində irfani məqamların izi ilə / Çağımızdan görünən orta əsrlər. AMEA müxbir üzvi, əməkdar elm xadimi, professor R.Azadəyə həsr olunmuş II beynəlxalq elmi konfransın materialları. Bakı, 2014, 15-16 dekabr, s.476-480.
26. Esoteric in "Kitabi-Dede Gorgud" Epos // $4^{th}$ International Confrence Ohrid-Vodici, 2016 Ohrid, Macedonia 17-19.01. 2016, p.19.
27. Hürufilik və müqəddəs hərflər // AMEA-nın Xəbərləri, Humanitar Elmlər seriyası, 2016, №1, s.28-32
28. About Benefiting from Folk in Verses of Nasimi's Poetry // International Scientific Journal Theoretical & Applied Science p-ISSN: 2308-4944 (print) e-ISSN: 2409-0085 (online) Year: 2016 Issue: 2 Volume: 34 Published: 29.02.2016 http://T-Science.org, p.86-88
29. Həkim Süleyman Ata // AMEA Nizami adına Ədəbiyyat İnstitutunun. Xəbərləri. Humanitar elmlər seriyası .2017, № 1, s.25-29.
30. Hacı Bayram Vəli şeirlərində özünüdərkin struktur troyektoriyası // Türkiye. Akademik tarih ve düşünce dergisi, 2017, cilt 4, №12, s.37-53
31. Ecoteric Meanings in Poemas of Khagani Shirvani // Naukavı Zapiski. ТНРУ. Seriya Literaturoznavstvo №46. Ternopol 2017, s.347-355
32. Məhdimqulu Fəraqi şeirində təlvin: psixoloji və arifanə haldəyişmələr // Görkəmli Türkmən şairi Məhdimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi-tədqiqi məqalələr. Elm və təhsil, 2017, s. 235-243.
33. Mövləvi təriqətinin əsas modeli: səma ayini // Ədəbi əlaqələr. AMEA Nizami adına Ədəbiyyat İnstitutu. Humanitar Elmlər seriyası, 2018, 32 №1, s.153-159
34. Tasawwuf in Teh Context of Folk Poetryn // Connferantation ISSUE 123, SPR-II (Special Issue- I ), 2018 Hudson, USA,p. 29-36.
35. Роль дастанов в формировании литературного суфизма / Российский Государственный Педагогический университетим. Им. А.И.Герцена.Материалы ежегодной Международной конференции Санкт-Петербург. 18-20 апреля, 2013, s.349-354.
36. Функции символических образов дидактической месневи (на основедения произведения Шейх Галиба "Хюсню Ашк") / III Международная научно-практическая конференция" Природе и

культурное наследие: междисциплинарные исследования, сохранении развитие”. Коллективная монография. Sankt-Peterburq, 2014,29-31 октября, s.90-98.
37. Azerbaycan fikralerinde güle-güle düşündürən arif Hoca Nesreddin / Uluslararası Nesreddin Hoca sempozyumu. Türkiye. Akşeher, Konya. 2015, İyul, s. 5-7.
38. Nizami Gencevi’nin “Yedi güzel” eserinde manevi kâmilliğin makamları / Türk Tasavvuf Kültürü ve Gelenekleri (kurultay) 13th-15th October 2014, 13-15 Ekim, 2014, Türkiye. İstanbul.
39. Mehebbet Dastanlarının Edebi Sufizmin Oluşmasında Rolu // Türk Halk Edebiyatı. 8. Milletlerarası Türk Kültürü konqresi, Ankara, 2017, s.381-385

**Хураман Бахман кызы Гумматова**

# Тасаввуф в классической Азербайджанской поэзии (XII-XVI вв)

## РЕЗЮМЕ

Одним из самых важных идеологических источников классической Азербайджанской литературы является мышление тасаввуфа. С этой точки зрения исследование проблемы тасаввуфа важная и актуальная задача. Тасаввуф явился направлением такова масштаба, что не только классическая Азербайджанская литература, но и полностью Азербайджанское национальное мышлениен невозможно вне него.

Эта диссертационная работа состоит из введения, четырех глав, заключения и списка использованной литературы. Во ввдение обоснованы актуальность и научная новизна изучаемой темы, проанализированы степень и состояние изучунности, выделена цель и определены теоретическая и практическая важность данной работы.

I глава исследовательской работы называется - “Взгляд на историю мистического мышления в Азербайджанской литературе.” Эта глава состоит из 3-х подглав идущих под названием “Источник национального литературного мышления: Краткое сведение о происхождении, сути и философско-поэтических особенностях мистицизма”, “Создание литературного мистицизма и проблема таригатов в системе литературно-поэтического мышления”, “Мистические идеи и мотивы в литературе раннего и позднего средневековья”. В I главе в основном рассказывается о возникновении мистицизма, рассматриваются теоретические мысли философов о мистицизме, этимология слова “тасаввуф”. Также затрагиваются вопросы о роли таригатов (сект) в возникновении мистической поэзии, роль символов и аллегорий в мистической литературе в стихах разных поэтов.

II глава исследовательской работы называется - «Мистические идеи в произведениях Низами Гянджеви». Первая подглавка «Влияние мистических идей Низами» состоит из трех пунктов, которые именуются «Тасаввуф в поэме Сокровищница тайн», «Тасаввуф как источник в поэмах Хосров и Ширин», «Лейли и Меджнун», «К моральному совершенному тасаввуфа в поэме «7 красавиц» модель: этапов тасаввуфа».

Втогая подголовке II главы названя “Влияние мистических идей Низами на литературу турецких народов».

Здесь проанализированы мистические идеи в произведениях Низами. В целом невозможно изучить проблему мистицизма в классической поэзии Азербайджана XII-го века вне творчества Низами не только потому, что творчество Низами хронологической точки зрения составляет начало литературного процесса, но также затем, что произведения Низами играют ведущую роль в зарождении и распространении тасаввуфа в литературе. Суфизм своими прогрессивными идеями и мотивами являлся важны источником мысли для поэта.

III глава диссертационной работы под названием работы «Распространение мистических идей в Азербайджанской литературе XIII-XIV веков» состоит из четырех подглав которе называются:«Стихи мистического содержания Шейха Сафияддина Ардабили и Иззеддина Гасаноглы», «Динамика развития тасаввуфа в поэзии Махмуда Шабустари», «Отражение классических традиций и мистических оттенков в поэзии Кази Бурханеддина и Марагалы Ахведи» и «Тасаввуф как акт самопознания в газелах Насими и его современников».

История дошедшей до нас письменной Азербайджанской литературы связана с именем поэта XIII-го века Гасаноглы. В этой главе показана роль Шейха Сафияддина в создании поэзии на родном языке в XIII-ом веке. В этой исследовательской работе прояснены влияние и роль Ахмед Аясеви, Шейха Сафияддина и Сулеймана Хаким Ата на развитие и формирование мистической литературы в туркоязычной поэзии.

IV глава диссертационной работы: «Тасаввуф в Азербайджанской поэзии XV-XVI веков» состоит из 3-х подглав, под названием «Тасаввуф источник как гуманистических идей в поэзии Шаха Касыма Анвара и Хабиби», «Тасаввуф как модель самопознания кыяылбашей влирике Шаха Исмаила Хатаи » и как модель самопонимания «Мистицизм в творчестве Физули и в произведениях его современников».

Здесь говорится о стремительном развитии в Азербайджанской литературе XV-XVI веков поэтической мысли на родном языке и постоянном влиянии тасаввуф на их произведения в участии мистической идеи в этом процессе.

Кариби, Юсиф беку и Устаджлу, Сирурии и др. поэты жившие в XVI-ом веке творивше на родком языке испытали влияние Насими, Хатаи иФизули.

Развитие тасаввуфа привело к тому, что итоге Азервайджанская литература впиталнo в себя, тасаввуф и он стал структурным элементом Азербайджанской литературы XII-XVI-х веков. Если в начале поэзия играет для тасаввуф скорее всего роль средства для стихотворного воспроизведения, то в последующих веках этот процесс углубляется и усиливается превращением мистической идеи в литературную.

**Khuraman Bahman gyzy Hummatova**

## Tasawwuf in classical Azerbaijani poetry (XII-XVI)

## SUMMARY

One of the largest ideological sources of Azerbaijan literature is a mystical thinking. From this point of view the study of tasawwuf problem is a topical and important task. Tasawwuf is a such intellectual event that not only classical Azerbaijan literature, but also the whole Azerbaijan national intellection couldn't be apart from it.

This thesis consists of introduction,4chapters,conclusion and references. In the introduction, the topicality and novelty of the researched topic was justified, level and condition of studyability of the topic was analyzed, the aim of the work was highlighted as well as was narrated about theoretical and practical importance of this research.

The first chapter of the research “View to history of mystical intellection in Azerbaijani literature” consists of 3 subchapters, which are: “Sources of national literary intellection: Short review about origin, essence and philosophical-poetical features of mysticism”, “Formation of literary mysticism and problem of tarigats in system of literary-poetical intellection” and ”Mystical ideas and motives in literature of early and late medieval”.In the first chapter was mainly dedicated to the formation of mysticism, theoretical thoughts of philosophers on mysticism, etimology of word “tasawwuf”. Also, topics on the role of tarigats (sects) in formation of mysticism, role of symbols and allegories in mystical literature in different verses were studied in here.

The second chapter of the thesis “Mystical ideas of Nizami Ganjevi’s creations” consists of 2subchapters.Thefirst part of the second chapter named as “Nizami Ganjevi’s mystical views”. This part also consists of 3sections: “Presentation of mystical intellection in poem “Treasure of secrets”, “Mysticism as an option in “ Khosrov and Shirin ”and “ Leyli and Mejnun ”poems and moral growing in poem” 7 beauties”:мodel of mystical moment and state”. The part of second chapter is “The influence of Nizami’s mystical ideas on literature of Turkish folks”.

In these parts of the research mystical ideas of Nizami’s masterpieces were analyzed. Generally,it is impossible to research problem of mysticism in the classical Azerbaijani literature of XII century apart from Nizami’s creativity. Not only due to, Nizami’s creativity from chronological point of

view constituted the beginning of researched 5century(XII-XVI) literary process. But,cause that Nizami's creations played a major role inthe formation and distribution of literary mysticism. Sufism, withit's progressive ideas and motives werean attractive source of inspiration for the poet.

The third chapter of the work named as "Distribution of mystical ideas in the azerilanguage literature of XIII-XIV centuries" Theparts of this chapter are called "Sheikh SafiyaddinArdabily's and IzzeddinHasanogly's mystical content verses", "Dinamics of tasawwuf development in Makhmud Shabustary'spoetry", "Reflection of classical traditions and mystical shades in Kazi Burkhaneddin's and MaragalyAkhvedy's poetry" and "Tasawwuf as an act of selfunderstanding in Nasimi's and his contemporaries verses". In the third chapter, Ahmed Yasevi's, Suleiman Hakim Ata's and Sheikh Safiyaddin's role in the formation of the azerilanguage poetry in XIII century was shown.

In the Azerbaijani literature historical basics of the azerilanguage literature related to XIII century poet Hasanogly.

In the fourth chapter of the research "Tasawwuf in the Azeri literature of XV-XVI centuries" consists of 3parts: "Mysticism as an instrument of outreach for humanistic ideas in Shakh Kasim Anvar's and Habibi's poetry", "Mysticism as model of selfunderstanding in Shakh Ismail Khatai's lyrics" and "Mysticism in Fizuly's and his contemporaries creations".

In these parts of the work, impetuous development of poetical thoughts in the azeri language and permanent participation of mystical intellection in this process in XV-XVI cent are narrated.

The development of mystical views in the Azerbaijani literature eventually led to assimilation of mysticism by literature and mysticism became a structural element of literature. If initially poetry acts as a tool of poetic reproduction for mysticism, but in subsequent centuries this process continues and intensifies the transformation of mystical idea to literary. In this process the Azerbaijan literature involved to all it's literary composition and potential.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ ГЯНДЖЕВИ**

*На правах рукописи*

**ХУРАМАН БАХМАН кызы ГУММАТОВА**

# ТАСАВВУФ В КЛАССИЧЕСКОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ ( XII-XVI ВВ )

**5716.01-Азербайджанская литература**

## А В ТО РЕ Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора наук по филологии**

**БАКУ – 2018**